14 aprel 2023 №28 (1997)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## 15 aprel Dünya İncəsənət Günüdür




15 aprel Dünya İncəsənət Günüdür. Əlamətdar gün 2019-cu ildə UNESCO Baş Konfransının Parisdə keçirilən 40-cı sessiyasında təsis olunub. Bununla bağlı qəbul olunan qətnamədə (26 noyabr 2019-cu il) Dünya İncəsənət Gününün bədii yaradıcılıqla cəmiyyət arasında əlaqələrin möhkəmlənməsi, bədii ifadə müxtəlifliyinin önəmi və sənət adamlarının davamlı inkişafa verdiyi töhfələri diqqətə çatdırmaq məqsədi daşıdığı bildirilir.

Dünya İncəsənət Günü ilk dəfə (2020) pandemiya dövrünə təsadüf etdiyindən sadəcə virtual məkanda qeyd olunmuşdu.

UNESCO-nun bununla bağlı ilk mesajında pandemiya zamanında Dünya İncəsənət Gününün qeyd edilməsinin incəsənətin cəmiyyəti bir araya gətirmək, ilham vermək, birgə fəaliyyətə təkan vermək qabiliyyətini daha aydın nümayiş etdirmək baxımından xüsusilə önəmli olduğu vurğulanırdı.

*davamı səh. 2-də*

# Azərbaycanın Avropadakı yeni strateji tərəfdaşı

### Jelka Tsviyanoviç: Azərbaycan Bosniya və Herseqovinada bir çox işlər görüb, indi praktiki əməkdaşlığa başlayırıq

Aprelin 13-də Prezident İlham Əliyev Bosniya və Herseqovinaya rəsmi səfər edib. Həmin gün Sarayevoda Azərbaycan Prezidenti İlham Əliyevin Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç, Rəyasət Heyətinin üzvləri Jelko Komşiç və Denis Beçiroviç ilə görüşü olub.



Sonra Azərbaycan Prezidenti İlham Əliyevin Sarayevoda Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri və üzvləri ilə geniş tərkibdə görüşü keçirilib.

Görüşdə Azərbaycanın Bosniya və Herseqovinanın dostu olduğunu deyən Jelka Tsviyanoviç, Jelko Komşiç və Denis Beçiroviç bu səfərin ölkələrimiz arasında tərəfdaşlığın inkişafında yeni səhifə açacağına və əlaqələrimizin daha da inkişafına ciddi töhfə verəcəyinə əminliklərini bildiriblər. Azərbaycanın Bosniya və Herseqovinaya daim dost münasibəti göstərməsi, xüsusilə 2014-cü ildə bu ölkədə baş vermiş daşqınların fəsadlarının aradan qaldırılmasında və COVID-19-a qarşı mübarizədə göstərdiyi maddi və humanitar dəstək minnətdarlıqla qeyd olunub. Ölkəmiz tərəfindən Bosniya və Herseqovinada humanitar infrastruktur xarakterli bir sıra layihələrin həyata keçirilməsi yüksək qiymətləndirilib.

Azərbaycanın Bosniya və Herseqovinada səfirliyinin açılmasının əlaqələrimizin inkişafında mühüm rol oynadığı bildirilib və Bosniya və Herseqovinanın da tezliklə Azərbaycanda səfirlik açmaq niyyətində olduğu qeyd edilib. Bosniya və Herseqovinanın Azərbaycan vətəndaşları üçün viza rejimini aradan qaldırdığı və bu istiqamətdə Azərbaycan tərəfindən də müvafiq addımların atılacağı vurğulanıb.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri və üzvləri 1992-ci il fevralın 26-na keçən gecə Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Xocalı şəhərində törədilən qətliamın heç zaman unudulmamasının vacibliyinə toxunublar, Bosniya və Herseqovinanın tarixi ilə Azərbaycanın tarixində bənzər hadisələrin olduğunu qeyd ediblər.

1972-ci ildə Bakı və Sarayevo şəhərlərinin qardaşlaşması ilə bağlı sazişin imzalandığını xatırladan Prezident İlham Əliyev bildirib ki, Azərbaycanla Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə əlaqələrimizi keyfiyyətcə yeni səviyyəyə qaldıracaq.

Siyasi münasibətlərimizin daim çox yaxşı səviyyədə olduğunu, ölkələrimizin bir-birinə qarşılıqlı dəstək göstərdiklərini vurğulayan Prezident İlham Əliyev Azərbaycan torpaqlarının işğal altında olduğu müddətdə də Bosniya və Herseqovinanın həmişə ərazi bütövlüyümüzə və suverenliyimizə göstərdiyi dəstəyin yüksək qiymətləndirildiyini qeyd edib. Dövlətimizin başçısı 44 günlük Vətən müharibəsi zamanı da Bosniya və Herseqovinanın Azərbaycana göstərdiyi siyasi dəstəyin təqdir olunduğunu deyib.

*davamı səh. 2-də*

## Ermənistanda azərbaycanlı əsirə qarşı işgəncə barədə beynəlxalq təşkilatlar məlumatlandırılıb

Xarici İşlər Nazirliyi Ermənistan tərəfindən əsir götürülmüş Azərbaycan hərbçilərinə qarşı törədilən işgəncə ilə bağlı məlumat yayıb.

Məlumatda qeyd olunur ki, bir neçə gün əvvəl Naxçıvan Muxtar Respublikası Şahbuz rayonunun Ermənistanla sərhədboyu ərazisində əlverişsiz hava şəraitində məhdud görmə səbəbindən Azərbaycan Ordusunun itkin düşmüş əsgərləri – 2004-cü il təvəllüdlü Bəbirov Aqşin Qabil oğlu və 2003-cü il təvəllüdlü Axundov Hüseyn Əhliman oğlu Ermənistan tərəfindən əsir götürülüb. Sosial şəbəkələrdə yayılmış videogörüntülərin birində əsir götürülmüş Hüseyn Axundova qarşı fiziki işgəncə və qeyri-insani rəftar halları əks olunub.

Qeyd edilir ki, Ermənistan tərəfindən etnik zəmində zorakılığın növbəti nümunəsi olan sözügedən vəziyyət ilə əlaqədar aidiyyəti beynəlxalq təşkilatlar müvafiq olaraq məlumatlandırılıb. Bu zorakılıq beynəlxalq humanitar və insan haqları hüququndan irəli gələn öhdəliklərin Ermənistan tərəfindən kobud şəkildə pozulmasıdır. Aidiyyəti beynəlxalq təşkilatlar sözügedən zorakılığa, o cümlədən Ermənistan tərəfindən son 30 ildən artıq müddətdə azərbaycanlı hərbi əsirlərə və mülki məhbuslara, itkin düşən 3890 nəfər azərbaycanlıya qarşı zorakılıq faktlarını araşdırmalı və lazımi qiymət verməlidir.

Əsir və itkin düşmüş, girov götürülmüş vətəndaşlarla əlaqədar Dövlət Komissiyası da Azərbaycan Ordusunun itkin düşən iki əsgəri ilə bağlı beynəlxalq təşkilatlara müraciət edib.

Avropa İttifaqının Azərbaycandakı səfiri Peter Mixalko isə Ermənistanda hərbçimizə qarşı qeyri-insani rəftarın əks olunduğu videogörüntüləri "çox təəssüfləndirici" adlandırıb. "Bütün məhbuslarla beynəlxalq humanitar hüquqa uyğun davranılmalıdır", – deyə o bildirib.

# Milli teatr prosesi yeni mərhələdə

### Müasir səhnəmizin inkişaf perspektivlərinin müzakirə olunduğu forum başa çatdı



Xəbər verdiyimiz kimi, 11-12 aprel tarixlərində Heydər Əliyev Mərkəzində "Azərbaycan teatrı – 150: inkişaf perspektivləri" mövzusunda Teatr Forumu keçirildi.

Forum Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) iştirakı ilə gerçəkləşdi.

Teatr ictimaiyyəti iki gün ən müxtəlif mövzularda olduqca məhsuldar, perspektivə hesablanmış və aydın hədəfləri olan bir teatr görüşünə şahidlik etdi.

Forumda aktyor, rejissor, teatrların rəhbərləri, texniki heyətin təmsilçiləri, habelə teatrşünasları və s. bir araya gəlib teatrın mahiyyətinə vararaq qarşıda duran əsas vəzifələrə nəzər saldılar.

Aprelin 12-də, forumun ikinci gününün son panel müzakirəsi "Teatr sahəsində insan kapitalının inkişafı" mövzusuna həsr olunmuşdu.

*davamı səh. 3-də*

## Daşkənddə "Şuşa Günləri"



Şuşa şəhərinin 2023-cü ildə "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun təşəbbüsü və Daşkənddəki Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzi (AMM) ilə birgə layihəsi əsasında 10-11 aprel tarixlərində Özbəkistanda "Şuşa Günləri" keçirilib.

AMM-də təşkil olunan açılış mərasimində Özbəkistanın mədəniyyət və turizm naziri Ozodbek Nazarbekov, Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva, Azərbaycanın Özbəkistandakı səfiri Hüseyn Quliyev, Türk Dövlətləri Parlament Assambleyasının (TÜRKPA) baş katibi Mehmet Süreyya Er, Özbəkistanın Mədəni İrs Agentliyinin rəhbəri Bahadur Abdukarimov, Daşkənddə akkreditə olunmuş türk dövlətlərinin səfirləri, millət vəkilləri, yerli rəsmilər iştirak ediblər.

Tədbir iştirakçıları əvvəlcə AMM-in önündə Heydər Əliyevin büstünün qarşısına, həmçinin "Şəhidlər və Zəfər" xatirə lövhəsi önünə gül-çiçək dəstələri qoyublar. Mərkəzin foyesində qonaqlara "Azad və çiçəklənən Şuşa" adlı foto və nəşrlər sərgisi təqdim edilib.

*davamı səh. 8-də*

## Füzuliyə sakinlərin ilk qrupu 2024-cü ildə köçürüləcək

İşğaldan azad edilmiş bütün ərazilər kimi, Füzuli rayonunda da genişmiqyaslı quruculuq işləri həyata keçirilir. Füzuli şəhərinin Baş planı bu martın 18-də Nazirlər Kabineti tərəfindən təsdiqlənib.

2022-2026-cı illərdə bərpa olunan yaşayış məntəqələri üzrə Dövlətyarlı kəndinin şəhərsalma əsaslandırılması təsdiq edilib, Pirəhmədli və Dədəli kəndlərinin konsepsiyası hazırlanıb. Dövlətyarlı kəndində tikinti işlərinin cari ilin avqust ayında, Pirəhmədli və Dədəli kəndlərində isə oktyabr ayında başlanılması planlaşdırılır. 2023-cü ildə Füzuli rayonunda daha 7 kəndin – Qarğabazar, Cuvarlı, Qoçəhmədli, Qarakollu, Qaraxanbəyli, Horadiz və Mirzəcamallı kəndlərinin layihələndirilməsi nəzərdə tutulur. Füzuli şəhərində Peşə liseyinin, Mərkəzi xəstəxananın, Mərkəzi parkın, inzibati binanın layihələndirmə işləri davam etdirilir.

Bu barədə aprelin 12-də Füzulidə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Şəhərsalma məsələləri üzrə İşçi qrupunun iclasında məlumat verilib.

*davamı səh. 4-də*

## Reza Deqatinin Qarabağ fotoları İsveçrədə nümayiş olunub



İsveçrənin Lozan şəhərində məşhur fotoqraf Reza Deqatinin sərgisi və onun iştirakı ilə konfrans təşkil olunub. Konfransda İsveçrədəki səfirliyimizin diplomatları, bu ölkədə akkreditə olmuş diplomatik korpusun nümayəndələri, jurnalistlər, yerli ictimaiyyətin nümayəndələri və Lozan şəhərinin rəsmiləri iştirak ediblər.

Azərbaycanın İsveçrə Konfederasiyasındakı Səfirliyindən verilən məlumata görə, konfransda Reza Deqati digər fotoşəkilləri ilə bərabər Qarabağda çəkdiyi seçilmiş fotolarını təqdim edib və fotolar haqqında ətraflı məlumat veribdir.

*davamı səh. 2-də*

### ARTE kanalında Azərbaycanın caz musiqisi ilə bağlı reportaj



*səh. 3*

### Beynəlxalq Uşaq Kitabları Şurasının sertifikatları azərbaycanlı müəlliflərə təqdim olunub

*səh. 3*



### Rus Dram Teatrı Sankt-Peterburqda "Maskarad" göstərib

*səh. 5*

№28 (1997)
14 aprel 2023
www.medeniyyet.az

# Balkanlardakı etnik barışıq təcrübəsi Cənubi Qafqaz üçün də maraqlı ola bilər

## Şimali Makedoniyanın XİN başçısı bu mövzuda Azərbaycan rəhbərinə məlumat verib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 12-də Şimali Makedoniya Respublikasının xarici işlər naziri, ATƏT-in fəaliyyətdə olan sədri Buyar Osmanini qəbul edib.

Dövlətimizin başçısı beynəlxalq tədbirlər əsnasında Şimali Makedoniyanın Prezidenti və Baş naziri ilə olan təmaslarını məmnuniyyətlə xatırladıb.

Buyar Osmani ATƏT-in fəaliyyətdə olan sədri kimi Şimali Makedoniyanın prioritetləri barədə dövlətimizin başçısına məlumat verib. Bildirib ki, Şimali Makedoniya sədrliyi çərçivəsində "Hər şey insanlar üçün" konsepsiyasını əsas götürüb və sədrlik prosesində də bu əsasda insanlara köklənən siyasətin həyata keçirilməsi istiqamətində çalışıb. O, Şimali Makedoniyada daxili siyasətdə "Hamı üçün vahid cəmiyyət" konsepsiyasından çıxış etdiyini bildirib, ölkə daxilində və regionda postmünaqişə şəraitində barışığın təmin olunması istiqamətində həyata keçirilən layihələr barədə məlumat verib.

Azərbaycan Prezidenti Şimali Makedoniyanın və ümumilikdə Balkan regionunun etnik barışıq konsepsiyasının, reinteqrasiya və inklüziv cəmiyyətin yaradılması təcrübəsinin Cənubi Qafqaz üçün də maraqlı ola biləcəyini qeyd edib. Dövlətimizin başçısı Azərbaycanın üç Cənubi Qafqaz ölkəsinin bir araya gələrək görüş keçirməsi ilə bağlı təklifini xatırladıb.

Prezident İlham Əliyev Ermənistanla Azərbaycan arasında hazırda sülh prosesinin iki istiqamət üzrə həyata keçirildiyini deyib. Bu baxımdan Azərbaycanın Qarabağ iqtisadi regionundan olan erməni sakinlərlə birbaşa təmasların həyata keçirilməsi istiqamətində Bakıda görüşlərin təşkil edilməsinə dair təkliflərlə çıxış etdiyini vurğulayıb. Diqqətə çatdırılıb ki, bununla bağlı xüsusi nümayəndə təyin edilib və erməni sakinlər Bakıya həm reinteqrasiya, həm də müxtəlif infrastruktur layihələrinin müzakirəsi məqsədilə dəvət edilib.

Prezident İlham Əliyev, eyni zamanda, Ermənistanla Azərbaycan arasında ikitərəfli əsasda sülh müqaviləsi üzrə və münasibətlərin normallaşdırılması istiqamətində danışıqların aparıldığını bildirib.

Dövlətimizin başçısı aprelin 11-də Ermənistan-Azərbaycan sərhədində baş vermiş insidenti qeyd edərək, bunun Ermənistan tərəfindən məqsədyönlü şəkildə törədilmiş təxribat olduğunu bildirib.

Buyar Osmani ATƏT-in Azərbaycanda humanitar minatəmizləmə, yaşıl liman və digər praktiki layihələrə töhfə verə biləcəyini qeyd edib.

Prezident deyib ki, Azərbaycan ATƏT ilə əməkdaşlığa praktiki müstəvidə baxır. Bu xüsusda transsərhəd çayları üzrə birgə əməkdaşlıq, humanitar minatəmizləmə, yaşıl limanlar, Orta Dəhliz kimi konsepsiyalar üzrə praktiki və praqmatik əməkdaşlıq layihələrinin icra olunması imkanlarına baxılması mümkündür.

# Milli Muğam Müsabiqəsinə qeydiyyat başa çatıb

Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə keçirilən Milli Muğam Müsabiqəsinə qeydiyyat başa çatıb.

Bu barədə Heydər Əliyev Fondu məlumat yayıb.

Qeyd olunub ki, martın 1-dən aprelin 10-dək aparılan qeydiyyatda yaşı 18-dən 35-dək olan xanəndə və instrumental ifaçılar iştirak ediblər. Yarışmaya vəsiqə qazanan iştirakçılar aprelin 20-də elan ediləcək.

Yarışmanın birinci turu 24-25 apreldə, ikinci turu isə 26-27 apreldə keçiriləcək. Xanəndə və instrumental ifa kateqoriyaları üzrə qaliblər aprelin 27-də müəyyənləşəcək.

Müsabiqənin yekun konserti aprelin 30-da təşkil olunacaq.

Milli Muğam Müsabiqəsinin qalibləri ölkəmizi "Muğam aləmi" 6-cı Beynəlxalq Muğam Festivalında təmsil edəcəklər.

# "Mərmər soyuğu" filmi Paris Asiya İncəsənəti Milli Muzeyində göstəriləcək

Xəbər verdiyimiz kimi, 28 fevral – 7 mart tarixlərində Fransanın Vesul şəhərində keçirilən 29-cu Asiya Filmləri Beynəlxalq Festivalında (FICA – Festival International des Cinymas d'Asie de Vesoul) azərbaycanlı rejissor Asif Rüstəmovun "Mərmər soyuğu" tammetrajlı bədii filmi mükafata layiq görülüb.



Festivalda ümumilikdə 38 film nümayiş olunub. Vesul festivalında mükafat qazanmış filmlər Fransa paytaxtında, Zəfər Tağının yaxınlığında yerləşən Guimet – Paris Asiya İncəsənəti Milli Muzeyində nümayiş olunacaq.

Göstəriləcək ekran əsərləri sırasında azərbaycanlı rejissorun "Mərmər soyuğu" filmi də var.

# 15 aprel Dünya İncəsənət Günüdür

əvvəli səh. 1-də

Baş direktor Odri Azulenin mesajında o da qeyd edilmişdi ki, belə bir gün üçün 15 aprelin seçilməsi həm də bu tarixin dünya şöhrətli rəssam Leonardo da Vinçinin doğum günü (1452) olması ilə bağlıdır.

Xatırladaq ki, UNESCO-nun 2019-cu ildə qəbul etdiyi qərara qədər 15 aprel dünyada qeyri-rəsmi olaraq "Beynəlxalq mədəniyyət günü" kimi qeyd olunurdu. Bu tarix isə 1935-ci il aprelin 15-də rus rəssamı, arxeoloq və yazıçı Nikolay Rerixin təşəbbüsü ilə Vaşinqtonda "Bədii, elmi müəssisə və tarixi abidələrin qorunması haqqında" müqavilənin ("Vaşinqton paktı" və ya "Rerix paktı") imzalanması ilə bağlı idi. 20-yə yaxın ölkənin imzaladığı "Vaşinqton paktı" mədəni irsin qorunması ilə bağlı ilk beynəlxalq sənəd sayılır. Sonradan bu paktın bir sıra müddəaları BMT və UNESCO-nun mədəni irslə bağlı sənədlərində əksini tapdı və inkişaf etdirildi.

# Azərbaycanın Avropadakı yeni strateji tərəfdaşı

## Jelka Tsviyanoviç: Azərbaycan Bosniya və Herseqovinada bir çox işlər görüb, indi praktiki əməkdaşlığa başlayırıq

əvvəli səh. 1-də



Azərbaycan Prezidenti iki ölkə arasında iqtisadiyyat, ticarət, kənd təsərrüfatı, enerji, investisiyalar, nəqliyyat, turizm, mədəniyyət, elm, təhsil sahələrində və digər sahələrdə əməkdaşlıq üçün geniş imkanlar olduğunu diqqətə çatdırıb. Deyib ki, xüsusda iki ölkə arasında Strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamədən çıxış edərək hökumətlərarası birgə komissiyanın və müvafiq sahələr üzrə birgə əməkdaşlıq layihələrinin inkişaf etdirilməsi üçün işçi qruplarının yaradılması qərara alınıb.

Prezident bildirib ki, Azərbaycan dünyanın bir çox ölkələrində investisiya layihələri ilə çıxış edib və bu xüsusda Bosniya və Herseqovinada da müxtəlif investisiya layihələrində iştirak edə bilər. Azərbaycanın təbii qazının Balkan regionu və Bosniya və Herseqovinanın qonşu ölkələrinə ixrac edildiyi vurğulanaraq gələcəkdə enerji sahəsində əməkdaşlıq imkanlarının mümkünlüyü qeyd olunub.

Dövlətimizin başçısı bildirib ki, həm Azərbaycan, həm də Bosniya və Herseqovina çoxkonfessiyalı ölkələrdir. Bu baxımdan da ölkələrimiz arasında təcrübə mübadiləsinin aparılması yaxşı haldır. Eyni zamanda, ölkələrimizin vətəndaş cəmiyyəti təsisatları, elm-tədqiqat mərkəzləri arasında əməkdaşlıq məsələlərinin vacibliyi də bildirilib.

Azərbaycanın və Bosniya və Herseqovinanın minalardan əziyyət çəkən, minalarla çirklənmiş ölkələr olduğu vurğulanaraq, bu sahədə də əməkdaşlığın və təcrübə mübadiləsinin önəmi qeyd edilib.

***

Aprelin 13-də Sarayevoda "Azərbaycan Respublikası ilə Bosniya və Herseqovina arasında strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə" imzalanıb. Sənədi Azərbaycan Prezidenti İlham Əliyev və Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri xanım Jelka Tsviyanoviç imzalayıblar.

Sonra İlham Əliyev və Jelka Tsviyanoviç mətbuata bəyanatlarla çıxış ediblər.

Bosniya və Herseqovinanın Rəyasət Heyətinin Sədri təxminən bir ay öncə (3 mart – red.) Bakıya səfəri etdiyini və o zaman Azərbaycan Prezidentini də ölkəsinə dəvət etdiyini deyib: "Qısa bir zamanda cənab Prezident buraya səfər edib, Bosniya və Herseqovinanın dostu olduğunu sübut edib. Biz qərara gəldik ki, bu gün artıq əməkdaşlığımızın yeni səhifəsini açaq və daha səmərəli əməkdaşlıq etməyə başlayaq".

### "Ölkəmizdə çətinlik baş verəndə Azərbaycan hər zaman yanımızda olub"

Jelka Tsviyanoviç 2014-cü ildə daşqınlar zamanı və 2020-ci ildə başlanan koronavirus pandemiyası dövründə Azərbaycanın ölkəsinə göstərdiyi yardımı bir daha qeyd edib: "Bütün bu müddət ərzində Azərbaycan bizim bir neçə şəhərimizdə mühüm lazımi infrastruktur layihələri həyata keçirdi. Banya Luka şəhərində tibbi mərkəz yaradıldı, Sarayevo şəhərində dostluq parkı salındı. Eyni zamanda, Sarayevoda tibb müəssisəsi təsis edildi. Ölkəmizdə hər hansı bir çətinlik baş verən vaxtda da Azərbaycan hər zaman bizim yanımızda olmuşdur. Bu gün bizim imzaladığımız Bəyannamə ilə biz strateji tərəfdaşa çevrilmişik. Bu Bəyannamə bizə imkan verəcək ki, daha sıx siyasi dialoq həyata keçirək, eyni zamanda, daha səmərəli iqtisadi əməkdaşlıq edək. Bunun sayəsində biz – işgüzar dairələr, dövlət qurumları həm iqtisadi mənfəət görəcəyik, eyni zamanda, təhlükəsizlik sahəsində də əməkdaşlıq başlanılacaq".

Qeyd edilib ki, Azərbaycan Bosniya və Herseqovinada bir çox işlər görüb, indi praktiki əməkdaşlığa başlayırıq: "Biz nəqliyyat, energetika, turizm və digər sahələrdə imkanları nəzərdən keçirdik. Hesab edirəm, bu, yaxşı fürsətdir ki, biz bununla bağlı nazirliklərimizə təlimat verək ki, konkret layihələrlə bağlı siyahı hazırlansın, maraqlarımız nədən ibarətdir, sərmayə harada tələb olunur. Biz bütün bunlarla bağlı təlimatlarımızı verəcəyik. Azərbaycan bizim üçün çox mühüm ölkədir. Bu gün biz bunu bəyan edirik ki, bir-birimizə dost ölkəyik, həm beynəlxalq arenada bir-birimizi dəstəkləyirik, eyni zamanda, ikitərəfli münasibətlərimiz də daha yüksək səviyyəyə qalxacaqdır...".

### "Münasibətlərimizin yeni səhifəsi başlayır"

Azərbaycan Prezidenti də iki ölkə arasında əlaqələrin bundan sonra yüksələn xətlə inkişaf edəcəyini vurğulayıb: "Xüsusilə siyasi müstəvidə aparılan məsləhətləşmələr və əlaqələr bizim münasibətlərimizi yüksək səviyyəyə qaldırmışdır. Biz beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi bütün məsələlərdə dəstəkləmişik və bu dəstək bu gün də hiss olunur. Xüsusilə işğal dövründə Azərbaycanın ərazi bütövlüyü, suverenliyi və sərhədlərinin toxunulmazlığı ilə bağlı Bosniya və Herseqovinanın mövqeyi bizim üçün çox önəmli idi. Bir məsələni də xüsusilə qeyd etmək istəyirəm, iki il yarım bundan əvvəl Azərbaycan İkinci Qarabağ müharibəsi zamanı öz ərazi bütövlüyünü bərpa edəndə Bosniya və Herseqovina qətiyyətli şəkildə Azərbaycanı dəstəkləmişdir, bizim haqq işimizi dəstəkləmişdir. Bu, dostluq və qardaşlıq mövqeyidir, buna görə biz Sizə minnətdarıq...

Bu gün isə bizim münasibətlərimizin yeni səhifəsi başlayır. Rəsmi səfər çərçivəsində aparılan danışıqlar, qeyd etdiyim kimi, yeni imkanlar açır...".

İlham Əliyev qeyd edib ki, strateji tərəfdaşlıq əlaqələri xüsusi əlaqələrdir. Bu, hər iki ölkənin üzərinə çox böyük məsuliyyət qoyur: "Biz bu məsuliyyətə hazırıq. Əminəm ki, Bosniya və Herseqovina və Azərbaycan, sözün əsl mənasında, strateji tərəfdaşlar kimi bundan sonra birgə fəaliyyət göstərəcək.

Əməkdaşlığın digər istiqamətləri ilə bağlı onu deyə bilərəm ki, ticarət dövriyyəsinin artırılması məsələsi gündəlikdədir. Biz xahiş etdik ki, bizə konkret investisiya layihələri təqdim edilsin. Biz bu layihələrə baxaq, onları incələyək və qısa müddət ərzində öz cavabımızı verək. Biz ölkənizə sərmayə qoymaqda maraqlıyıq.

Eyni zamanda, energetika sahəsində çox geniş imkanlar vardır. Azərbaycanın təşəbbüskarı olduğu Cənub Qaz Dəhlizinin uzunluğu 3 min 500 kilometrdir. İki ildən bir qədər çox müddət ərzində bu kəmər Avropaya təbii qazımızı nəql edir. Bu kəmər Bosniya və Herseqovinanın sərhədlərinin yanından keçir. Yaxşı olar ki, biz təbii qaz sahəsində də əməkdaşlığa başlayaq...

Bununla paralel olaraq nəqliyyat sahəsində əməkdaşlığın bütün istiqamətləri geniş araşdırılmalıdır. Azərbaycan Orta Dəhliz layihəsi üzrə öz ərazisində bütün lazımi infrastruktur layihələrini icra edib, onları başa çatdırıb, eyni zamanda, digər ölkələrdə nəqliyyat infrastrukturunun yaradılması ilə bağlı böyük sərmayə qoyur. Ona görə Cənubi Qafqaz və Balkan regionları arasında nəqliyyat bağlantısı da, hesab edirəm ki, bütün bölgələrimizdə yaşayan xalqlar üçün faydalı ola bilər".

Azərbaycan Prezidenti iki ölkənin mədəniyyətlərarası dialoq sahəsində də əməkdaşlığının önəmini vurğulayıb: "Biz bu gün söhbət zamanı, həmçinin mədəniyyətlərarası dialoqun dərinləşməsi ilə bağlı fikir mübadiləsi apardıq, bizim təcrübəmizi bölüşdük. Hesab edirəm ki, bu istiqamətdə də birgə fəaliyyətin böyük önəmi ola bilər. Həm Bosniya və Herseqovina, həm Azərbaycan çoxkonfessiyalı ölkələrdir. Bizim ölkələrimizdə bir çox etnik qruplar yaşayır və bu etnik qrupların sülh, əmin-amanlıq, dostluq, qardaşlıq şəraitində yaşaması sabitlik üçün əsas şərtdir. Burada da fikir mübadiləsi, təcrübə mübadiləsi, birgə fəaliyyət, o cümlədən elm, təhsil sahələrində, qeyri-hökumət təşkilatları çərçivəsində birgə əməkdaşlıq üçün çox gözəl imkanlar vardır.

Bir məqamı da qeyd etməliyəm ki, 1972-ci ildə – hələ Sovet İttifaqı və Yuqoslaviyanın mövcudluğu dövründə Bakı və Sarayevo arasında qardaşlaşma sazişi imzalanmışdır. O vaxtdan Sarayevo və Bakı qardaş şəhərlər sayılır. Əminəm ki, bu səfərdən sonra bizim qardaşlığımız daha möhkəm olacaq".

# Milli musiqi xəzinəmizdən

## Bəstəkarların not məcmuələri və "Rauf Hacıyev. Biblioqrafiya" kitabının təqdimatı

Aprelin 13-də Milli Kitabxanada "Milli musiqi xəzinəmizdən (Azərbaycan Milli Kitabxanasının fondundan)" layihəsi çərçivəsində nəşr olunmuş Azərbaycan bəstəkarlarının not məcmuələrinin və "Rauf Hacıyev. Biblioqrafiya" kitablarının təqdimat mərasimi keçirilib.

Tədbirdə Milli Kitabxananın musiqi irsimizin təbliği ilə bağlı gördüyü işlərdən bəhs edilib. Qeyd edilib ki, Mədəniyyət Nazirliyi ilə birlikdə həyata keçirilən önəmli layihələrdən biri "Milli musiqi xəzinəmizdən (Azərbaycan Milli Kitabxanasının fondundan)" adlı layihədir. Kitabxana bu günədək həmin seriyadan görkəmli Azərbaycan bəstəkarlarının not əsərlərini ayrı-ayrı məcmuələr şəklində nəşr edərək musiqi ictimaiyyətinə təqdim edib. Azərbaycan musiqi ictimaiyyətinə kitabxana tərəfindən 100-dən artıq not məcmuəsi və bəstəkarlarımız haqqında nəşrlər uşaq musiqi məktəblərinin şagirdləri, bu sahədə ali məktəblərin tələbələri, musiqişünas alimlər üçün nəzərdə tutulub.



Tədbirdə görkəmli bəstəkar və dövlət xadimi, SSRİ Xalq artisti Rauf Hacıyevin rəngarəng yaradıcılığından, keçdiyi həyat və sənət yolundan söz açılıb, Milli Kitabxana əməkdaşları tərəfindən hazırlanan biblioqrafiya haqqında məlumat verilib. Bildirilib ki, Rauf Hacıyevin 100 illiyinə həsr edilmiş biblioqrafiyada bəstəkarın əsərləri, not nəşrləri, səsyazmaları, kitabları, həyat və yaradıcılığı haqqında materiallar, habelə dünya milli kitabxanalarında mühafizə olunan nəşrlər əhatə olunub.

# Reza Deqatinin Qarabağ fotoları İsveçrədə nümayiş olunub

əvvəli səh. 1-də

O, Birinci və İkinci Qarabağ müharibələrində fotoqraf kimi fəaliyyət göstərməsindən danışaraq bildirib ki, 2020-ci ildə müharibə zamanı Fransadan Ermənistana 80 jurnalist, Azərbaycana isə yalnız 2 jurnalist getmişdi. Belə ədalətsizlik qarşısında o, Azərbaycana gələrək baş verən hadisələri fotoaparatı ilə əbədiləşdirməyə qərar verib.

Birinci Qarabağ müharibəsi, eləcə də XX əsrin ən qanlı faciələrindən biri olan Xocalı soyqırımı haqqında məlumat verən Reza Deqati çəkdiyi şəkilləri nümayiş etdirib. Soyqırımı qurbanı olmuş ərinin və oğlunun cəsədini eyni vaxtda görən qadının haray çəkdiyi anı, eləcə də cılız, üzündə övlad itkisinin əzabları ifadə olunan, əlində itkin düşən oğlunun şəklini



tutaraq xəbər gözləyən yaşlı atanın şəkilləri fotoqrafın məşhur fotoları arasında diqqəti xüsusilə cəlb edib.

Azərbaycan torpaqlarının 30 il erməni işğalı altında olmasından, ölkəmizə qarşı qərəzli mövqedən söz açan Reza Deqati İkinci Qarabağ müharibəsində erməni silahlı qüvvələrinin mülki əhalini qadağan olunmuş bombalarla hədəfə almasından da danışıb. O, otuz ilə yaxın işğal dövründə Azərbaycanın şəhər və kəndlərinin Ermənistan silahlı qüvvələri tərəfindən yerlə yeksan edilməsini əks etdirən fotoları da göstərib. Ağdamın fotosunu nümayiş etdirərkən qeyd edib ki, xarici media nümayəndələri bu şəhəri "Qafqazın Xirosiması" adlandırıblar.

Qarabağ müharibəsindən çəkdiyi şəkillərlə yanaşı Reza Deqati Azərbaycandakı tolerantlıq və multikulturalizm mühitini əks etdirən fotolarını da nümayiş etdirib. Sonda konfrans iştirakçılarının suallarını cavablandırıb.

# Çağdaş Azərbaycan teatrı: konsepsiya və strateji hədəflər

Xəbər verdiyimiz kimi, "Heydər Əliyev İli" çərçivəsində 11-12 aprel tarixlərində Bakıda "Azərbaycan teatrı – 150: inkişaf perspektivləri" mövzusunda Teatr Forumu keçirildi.

Mədəniyyət Nazirliyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı, Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin (ADMİU) iştirakı ilə gerçəkləşən forum öz işini aprelin 12-də "Konsepsiya və strateji hədəflər" mövzusunda birinci panel iclasla davam etdirdi.

İclasda "Milli teatrın inkişaf strategiyası", "Auditoriya tələbinin formalaşması və tamaşaçı axınının stimullaşdırılması", "Marketinq və reklam strategiyası", "Çağdaş teatr prosesində müstəqil teatrların rolu" mövzuları üzrə müzakirələr aparıldı.

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktor müavini Vəfa Mühacirovanın moderatorluğu ilə keçən müzakirədə Azərbaycan Dövlət Pantomima Teatrının bədii rəhbəri Xalq artisti Bəxtiyar Xanızadə teatr və təhsil, teatr sənəti dünən və bu gün mövzusunda danışdı. Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının direktoru Naidə İsmayılzadə teatr sahəsində islahatlar, ənənələr, festivallar və müasir çağırışlar barədə fikirlərini bölüşdü.






"M Teatr"ın rəhbəri Xalq artisti Vidadi Həsənov müstəqil teatrların problemləri, Azərbaycan Dövlət Yuğ Teatrının quruluşçu rejissoru Gümrah Ömər rejissor işi və təcrübə mübadiləsi mövzularında çıxış etdilər.

Panel müzakirədə həmçinin "dOM" teatrının rəhbəri Tərlan Rəsulov teatr problemlərinə spesifik yanaşma, "Əsa" teatrının rəhbəri Nihad Qulamzadə isə tamaşaçı-teatr münasibətləri barədə söz açdılar.

Gümrah Ömər çıxışında diqqətə çatdırdı ki, aktyorun inkişafını təmin və təyin edəcək bütün sistem və nəzəriyyələrdən faydalanmaq lazımdır – sözsüz ki, əsas mətləbdən və niyyətdən uzaqlaşmamaq şərtilə. Ona görə də aktyorda istedadla yanaşı, sənət ruhu da vacibdir. O öz yaradıcılığını ruhu ilə vəhdətdə təqdim etməlidir ki, sənətinin təsiri olsun.

Tərlan Rəsulov dedi ki, peşəkarların istəyi ilə yaranan ideyalar çox vaxt həyata keçməyib və bunun da həll yolu tapılmalıdır. Yeni kadrlar yetişdirməklə yanaşı, mövcud kadrlardan necə istifadə etmək barədə də düşünmək lazımdır. Teatr sahəsində yeni iqtisadi yanaşma da formalaşmalıdır. Teatr sahəsi yaradıcı sənayenin bir hissəsi olaraq ölkə iqtisadiyyatının vacib bir hissəsinə çevrilməlidir.

Xalq artisti Bəxtiyar Xanızadənin çıxışı "bu gün aktyor özünü necə təzahür etdirməlidir, teatr kimin olmalıdır" sualları ətrafında oldu. "Bütün zamanlarda teatr aktyorun olmalıdır", – deyən Xalq artisti həm də aktyorun intellektual, duyğusal və peşəkarlığının vacibliyini önə çəkdi.

Müzakirələrdə teatrda bədii düşüncə məsələsinə də toxunuldu, onun əhəmiyyəti vurğulandı. Ümumiyyətlə, mütəxəssislər teatr sahəsinin bir sıra problemləri ilə bağlı sualları cavablandırdı, müxtəlif təkliflər səsləndirildi.

**Lalə Azəri**

# Milli teatr prosesi yeni mərhələdə

## Müasir səhnəmizin inkişaf perspektivlərinin müzakirə olunduğu forum başa çatdı




*əvvəli səh. 1-də*

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının direktoru Əməkdar incəsənət xadimi Əliqismət Lalayevin moderatorluğu ilə keçən müzakirədə maraqlı, fərqli və yeni fikirlər səsləndirildi.

Xüsusən bölgə teatrlarının probleminə çevrilən ixtisaslı kadr məsələsi "Teatr təhsilində tələblə təklifin uzlaşma mexanizmi" mövzusu ətrafında müzakirə olundu. ADMİU-da Teatr sənəti fakültəsinin dekanı Böyükxanım Talıbova bu təhsil müəssisəsində tədrisin plan-proqramı, məzunları, onların gələcək iş taleyi ətrafında təhlillər apardı. Bildirdi ki, universitetin qarşısında duran əsas vəzifə ixtisaslı və yüksək səviyyəli kadr hazırlığıdır. Onların işlə təminatı, yaxud hazırda bölgə teatrlarının kadr sarıdan çətinlik yaşadığı halda gənclərin bölgələrə getmək istəməməyi təhsil verən təşkilatın problemi deyil. Gənclərin ixtisas sahələrində çalışmaları, bölgələrdəki sənət ocaqlarında fəaliyyətləri ilə bağlı təbliğat işi apardıqlarını da vurğulayan B.Talıbova onların qarşısında duran əsas maneənin yaşayış şəraiti və maddi təminatla bağlı olduğunu dedi.

Sonra müzakirələr "Teatr aktual məsələlərin effektiv təbliğat platforması kimi", "Sistemin qurulması və innovativ ideyaların tətbiqi zərurəti", "Müasir teatr sənətində festival hərəkatı" və "Region teatrlarında kadr potensialı" mövzuları ətrafında davam etdi.

Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının baş rejissoru Xalq artisti Aleksandr Şarovski tamaşaçının teatra cəlb olunması, teatrın qarşısında duran plan öhdəlikləri və bunu ödəmək uğrunda gedən mücadilədə əsl sənət prinsiplərinə cavab verən səhnə nümunələrindən çox kassaya hesablanmış işlərin ortaya çıxdığını əsas problem kimi önə çəkdi. O, festival hərəkatına, qarşılıqlı səfərlərin təşkilinə və bu yolla əyani təcrübə mübadiləsinə nail olunduğuna da işarə etdi.

Şəki Dövlət Dram Teatrının baş rejissoru Əməkdar incəsənət xadimi Mirbala Səlimli bölgə teatrlarında kadr problemlərini diqqət mərkəzinə çəkdi. O, aktyor və rejissordan savayı, adi işıqçıdan qrimçiyədək region teatrlarında korluq yaşandığını dedi. Bildirdi ki, bu vəziyyət bacarıqlı, yaradıcı insanların daha gəlirli sahələrə qaçmaları, teatrı perspektivli iş yeri kimi görməməkləri ilə bağlıdır.

Öz teatrlarında tətbiq etdikləri studiya təcrübəsini də bölüşən rejissor bu məsələdə yeganə əngəlin həmin həvəskar aktyor, rejissor və rəssamların ixtisaslı kadr olmadıqları üçün müvafiq qurum tərəfindən tanınan imtiyazlardan məhrumluğu olduğunu vurğuladı.

Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrının rejissoru Əməkdar artist Nicat Kazımov çıxışında ixtisaslı kadr hazırlığındakı çatışmazlıqlara və bu kadrların teatrlara gələrkən yaşadıqları süni problemlərə nəzər saldı. Bildirdi ki, aidiyyəti təhsil ocağında kadr hazırlığında kəmiyyətdən daha çox keyfiyyətə üstünlük verilməlidir. O, həmçinin ali aktyor təhsilli gənclərin ixtisas istiqamətləri üzrə iş tapmamaqlarının ciddi problem olduğunu dedi: "Akademik Musiqili Teatr üçün əsas kadrlar universitetin musiqili teatr aktyorluğu ixtisasından yox, daha çox Bakı Musiqi Akademiyası və Xoreoqrafiya Akademiyasının məzunları arasından seçilir. Bu isə yeni problemə rəvac verir".

Azərbaycan Dövlət Akademik Musiqili Teatrının quruluşçu rejissoru İradə Gözəlova isə gənclərin region teatrlarına maraq göstərməməsinin səbəblərindən danışdı. Bir neçə il Gəncə Dövlət Dram Teatrının baş rejissoru kimi çalışdığını deyən İ.Gözəlova bölgə teatrlarının qarşılaşdıqları əsas problemlərə şahid olduğunu, yeni nəsil rejissorların bu kimi çətin şəraitlərə qatlaşmaq istəmədiklərini təəssüflə qeyd etdi. Bildirdi ki, hər bir rejissor üçün bölgə teatrı təcrübə mənbəyi olmaqla yanaşı, truppanın müəyyənləşdirilməsi və həvəskarların peşəkar aktyor vərdişlərinə yiyələnmələri üçün də əhəmiyyət kəsb edir.

Teatrşünas, Azərbaycan Teatr Xadimləri İttifaqında Yaradıcılıq şöbəsinin müdiri Dağlar Yusif əsas diqqəti bölgə teatrlarının repertuar siyasəti və iş şəraitinə yönəltdi. O, ittifaq ilə bölgə teatrları arasında əlaqələrin möhkəmləndirilməsi istiqamətində görülən işlərə nəzər yetirdi.

Paneldə paytaxtdan bölgələrə göndərilən rejissor və direktorların ciddi seçimlə təyinatı, onların bölgənin teatr mühitinə uyğunlaşma cəhdləri, yerli teatrların repertuar siyasətinin onların mövcud potensialının nəzərə alınmadan qurulması da müzakirə edildi. Mövcud vəziyyətlə bağlı təkliflər səsləndirildi.

Bununla da, 150 yaşlı Azərbaycan peşəkar teatrının inkişaf perspektivlərinin müzakirə olunduğu ikigünlük forum öz işini başa vurdu.

Sonda xatirə şəkilləri çəkdirildi.

**Həmidə Nizamiqızı**

# Teatr Forumu: təəssürat və rəylər

Forumdakı ilk çıxışımda da bunu söylədim. Bəlkə də bu forum Azərbaycan teatr sənətinin son döngədə sonuncu şansıdır. Azərbaycan teatr sənəti ya bu döngədə xilas olacaq, ya da hər şey olduğu kimi davam edəcək. Bu o deməkdir ki, heç bir şey dəyişməyəcək.

Bu sözləri Xalq artisti **Nurəddin Mehdixanlı** söyləyib.

Azərbaycan mədəniyyətinin dünya mədəniyyətinin bir parçası olduğunu bildirən Xalq artisti deyib: "Heydər Əliyev Mərkəzində keçirilən bu tədbir Azərbaycanın mədəniyyət tarixi və taleyində olduqca önəmli bir məqamdır. İllərdən bəri yığılmış və deyilməsinə cəsarət edilməyən məsələlər burada müzakirə edilir, həll yolları axtarılır. Teatr canlı orqanizmdir. Biz bilirik haramız ağrıyır, ancaq özümüz özümüzü sağalda bilərik. Forum dayanmış, yolunu müəyyən mənada tapmaqda çətinlik çəkən teatrın yolunu doğru müəyyən etməkdə bizə kömək olacaq. Bir milləti var edən onun mədəniyyətidir. İnanıram ki, çox şey yaxşı istiqamətdə dəyişəcək".

***

Teatr Forumunun keçirilməsi sevindiricidir. Forumdan sənətin inkişafı naminə gözləntilərimiz çoxdur.

Bunu isə Azərbaycan Dövlət Akademik Musiqili Teatrının baş rejissoru **Cavid İmamverdiyev** deyib.

Rejissor çıxış və müzakirələrdə bir çox maraqlı fikirlərin səsləndiyini bildirib: "Mülahizələrimizi bölüşürük və bir çox suallara cavab tapırıq. Bu tədbir bizim üçün bir imkandır ki, teatr sənəti inkişaf etsin. Teatr Forumunun keçirilməsi vacib bir yenilikdir, çünki bu gələcəkdə bizə böyük imkanlar yaradacaq. Akademik Musiqili Teatr tərəfindən də təkliflər irəli sürülüb və ümidvarıq ki, onlara baxılacaq...".

***

Forumda çox sərbəst və demokratik şəkildə hər kəsə öz fikirlərini bildirməyə imkan yaradılıb. Teatr sahəsində illərdən bəri yığılıb qalmış problemləri qısa zamanda aradan qaldırmaq mümkün olmasa da, müəyyən vacib işlərin yoluna düşməsi üçün müzakirələr aparmaq vacibdir.

Mingəçevir Dövlət Dram Teatrının direktoru Əməkdar artist **İntiqam Soltanın** tədbirlə bağlı qənaəti belədir.

O bildirib ki, Azərbaycan teatrının problemləri bu gün çoxdur: "Bizim teatr yerli kadrların, teatrların fədailəri sayəsində bu gün ayaqda durur. Teatrlarla bağlı qanunlarda və onların icrasında boşluqlar var. Bu günədək teatrlara qarşı münasibət birmənalı olmayıb. Mədəniyyətdə islahatlar aparılmalıdır və onları ilk öncə teatrlardan başlamaq lazımdır. Əminəm ki, bu Teatr Forumu bu sahədə müəyyən işlərin başlanması və icrası üçün yeni imkanlar yaradacaq".

# ARTE kanalında Azərbaycanın caz musiqisi ilə bağlı reportaj

Fransa və Almaniyanın birgə televiziya kanalı olan ARTE "Bakıda caz havası" adlı reportaj yayımlayıb.



Reportajda Bakının tarixindən, eləcə də caz musiqisinin yaranmasından və inkişafından bəhs olunur.

Azərbaycan caz musiqisinin banisi, caz-muğam yeni caz devizinin yaradıcısı Vaqif Mustafazadənin yaradıcılığından da danışılır. Onun Azərbaycan musiqisinin, muğamın klassik Amerikan cazı sintezini yaratmasından söz açılıb. Vaqif Mustafazadənin Ev-Muzeyində aparılan çəkilişlər nümayiş olunub.

Reportajda Azərbaycanın bugünkü gənc caz musiqiçiləri haqqında da məlumat verilib.

# UNESCO üzrə milli komissiyaların baş katibləri üçün təlim proqramı yekunlaşıb



ADA Universitetinin İnkişaf və Diplomatiya İnstitutu və UNESCO üzrə Azərbaycan Respublikası Milli Komissiyasının birgə təşkilatçılığı ilə 10 Afrika ölkəsinin təmsilçiləri üçün keçirilən təlim proqramı aprelin 12-də yekunlaşıb.

Aprelin 4-də başlayan təlim Benin, Niger, Toqo, Burkina-Faso, Qvineya, Qabon, Cibuti, Kot-d'İvuar, Konqo Demokratik Respublikası, Ekvatorial Qvineyanın UNESCO üzrə milli komissiyalarının baş katiblərini bir araya gətirib.

Proqramın bağlanış mərasimində ADA Universitetinin prorektoru və İnkişaf və Diplomatiya İnstitutunun direktoru Fariz İsmayılzadə və onun müşaviri Aygün Hacıyeva, həmçinin Azərbaycan Respublikası UNESCO üzrə Milli Komissiyasının baş katibi Seymur Fətəliyev iştirakçılara sertifikatlar təqdim ediblər.

"Bu proqram Azərbaycanla Afrika ölkələri arasındakı əməkdaşlığın inkişafına fayda verir", – deyən Fariz İsmayılzadə iştirakçıların təmsil etdikləri regionla ölkəmiz arasında əlaqələrin genişlənməsinə xidmət edəcəklərinə ümidvar olduğunu bildirib.

Aygün Hacıyeva bildirib ki, dövlət qurumlarından dəvət edilmiş yüksək səlahiyyətli qonaq çıxışçılar və ADA Universitetinin professor-müəllim heyətinin mühazirələri vasitəsilə afrikalı diplomatlar ölkəmiz barədə dərin biliklərə yiyələniblər.

Seymur Fətəliyev proqramın iştirakçılarına təşəkkür edib: "Əminik ki, təlim proqramı ilə bağlı təəssüratlarınızı UNESCO Katibliyi və digər Afrika ölkələrindən olan həmkarlarınız ilə bölüşəcəksiniz".

Qeyd edək ki, təlim proqramının əsas məqsədi Azərbaycanın Afrika ölkələri ilə UNESCO çərçivəsində mövcud olan əməkdaşlıq münasibətlərinin daha da inkişaf etdirilməsidir. İştirakçıların ölkəmizin mədəni irsi, tarixi, regiondakı mövqeyi ilə bağlı hərtərəfli məlumat əldə etməsi üçün bir sıra dövlət qurumlarının rəhbərləri ilə görüşlər keçirilib. Qonaqlar paytaxtdakı müxtəlif tarixi yerləri və muzeyləri, eləcə də mədəniyyət paytaxtımız Şuşanı ziyarət ediblər.

Bağlanış mərasimində proqram iştirakçıları adından Kot-d'İvuarın UNESCO üzrə Milli Komissiyasının baş katibi N'Golo Aboudou ADA Universitetinin rektoru, səfir Hafiz Paşayevə və Azərbaycanın xarici işlər naziri, UNESCO üzrə Milli Komissiyanın sədri Ceyhun Bayramova təşəkkürlərini ifadə edib.

# Beynəlxalq Uşaq Kitabları Şurasının sertifikatları təqdim olunub




Beynəlxalq Uşaq Kitabları Şurasının (IBBY) "Fəxri siyahı"sına daxil edilən "Cəsur ayı və dostları" uşaq kitabının yazarı Solmaz Amanova, rəssamı İsgəndər Məmmədov və "Everest" nəşriyyatının icraçı direktoru Nemət Əliyev qurumun sertifikatları ilə təltif olunublar.

Sertifikatlar aprelin 11-də Azərbaycan Milli Kitabxanasında Mədəniyyət Nazirliyi Kitab sənayesi şöbəsinin müdiri Akif Marifli tərəfindən təqdim olunub.

Beynəlxalq Uşaq Kitabları Şurası (IBBY) 1953-cü ildə İsveçrənin Sürix şəhərində fəaliyyətə başlayıb və hazırda dünyanın 81 ölkəsi üzrə milli bölməsi var. Mədəniyyət Nazirliyinin tabeliyində olan F.Köçərli adına Respublika Uşaq Kitabxanasının iştirakı ilə ölkəmiz 2012-ci ildə Şuraya üzv qəbul edilib. Kitabxana eyni zamanda bu beynəlxalq qurumun milli bölməsi funksiyasını yerinə yetirir.

IBBY tərəfindən 1956-cı ildə təsis edilən "Hans Kristian Andersen mükafatı" uşaq ədəbiyyatı sahəsində çalışan müəllif və rəssamlar üçün ən nüfuzlu beynəlxalq təltif sayılır. IBBY-nin qərarı ilə 1967-ci ildən məşhur danimarkalı yazıçı H.K.Andersenin (1805-1875) doğum günü – 2 aprel Beynəlxalq Uşaq Kitabı Günü kimi qeyd edilir.

Şuranın iki ildən bir təşkil etdiyi beynəlxalq konqreslər uşaqlar üçün ədəbiyyat və kitab mədəniyyəti sahəsində çalışan nüfuzlu mütəxəssisləri bir araya gətirir. Həmçinin IBBY tərəfindən görkəmli yazıçılar, illüstratorlar və tərcüməçilərdən ibarət "Fəxri siyahı" hazırlanır. 2022-ci ilin sentyabrında Malayziyada (Putradjaya şəhəri) keçirilən IBBY konqresində növbəti siyahı elan olunmuşdu. "Fəxri siyahı"ya 53 ölkədən 47 müxtəlif dildə 163 nominasiya daxildir. 2022-ci ilin siyahısı üçün "Müəllif" kateqoriyasında 63, "İllüstrasiya" kateqoriyasında 52 və "Naşir" kateqoriyasında 48 iş seçilib. Azərbaycan hər üç kateqoriya üzrə fəxri diplomlar alıb.

Solmaz Amanovanın "Cəsur ayı və dostları" kitabı (illüstrator İsgəndər Məmmədov) "Everest" nəşriyyatında Azərbaycan və ingilis dillərində çap olunub.

# Bölgələrdə “Heydər Əliyev İli” münasibətilə tədbir və layihələr davam edir



Ağstafa rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı, rayon Təhsil Şöbəsinin dəstəyi ilə ümumtəhsil müəssisələrinin şagirdləri arasında “Əsrin lideri” mövzusunda bilik yarışı keçirilib. Ağstafa rayon ümumtəhsil məktəblərindən 10 komandanın iştirak etdiyi yarışda 1 nömrəli tam orta məktəbin “Zəfər” komandası, Həsənsu kənd tam orta məktəbin “Zirvə” komandası və Vurğun qəsəbə tam orta məktəbin “Lider” komandası ilk üç yeri tutub.

Ağstafa rayon Mədəniyyət Mərkəzində də yeniyetmə və gənclər arasında “Heydər Əliyev İli” ilə bağlı bilik yarışı təşkil edilib. Ağstafa şəhər 2 nömrəli tam orta məktəbin “Uğur” komandası I yerə layiq görülüb.

Tovuz rayon Heydər Əliyev Mərkəzi və rayon MKS-nin birgə təşkilatçılığı ilə “Heydər Əliyev – 100” adlı kitab sərgisi keçirilib. Sərgidə dahi siyasətçinin ömür yolu və siyasi fəaliyyəti ilə bağlı kitablar nümayiş etdirilib.

Tovuz rayon Düz Qırıqlı kənd Uşaq musiqi məktəbində “Bizim Heydər babamız” başlıqlı məktəbdaxili müsabiqə keçirilib. İxtisaslar üzrə fərqlənən şagirdlər fəxri fərmanla təltif olunub.

Tovuz rayon Mərkəzi Kitabxanasının təşkilatçılığı ilə “Heydər Əliyev fenomeni gəncliyin gözü ilə” başlığı altında səyyar sərgi keçirilib.

***

Ağcabədi rayon Heydər Əliyev Mərkəzi və rayon Hacıbədəlli kənd Uşaq musiqi məktəbinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev və Azərbaycan mədəniyyəti” adlı tədbir keçirilib. Çıxışlarda müdrik dövlət xadiminin çoxşaxəli fəaliyyətində mədəniyyət sahəsinə göstərdiyi diqqət və qayğıdan bəhs olunub. Mərkəzin rəqs kollektivi “Xarıbülbül” rəqsi, Musiqi məktəbinin xor kollektivi isə “Ulu öndər” mahnısı ilə tədbirə xoş ovqat qatıb.

Mərkəzdə həmçinin Ağcabədi şəhər Uşaq musiqi məktəbi ilə birgə “Heydər Əliyevin Azərbaycan musiqisinin inkişafında rolu” adlı tədbir də keçirilib. Şagirdlər F.Əmirovun “Fortepiano üçün 12 miniatür” məcmuəsindən “Vals” və A.Gərayın “Bağçakürd” əsərini, məktəbin xor kollektivi isə Ü.Hacıbəylinin “Çırpınırdın, Qara dəniz” mahnısını səsləndirib.



Rayondakı Heydər Əliyev Mərkəzi və Qarabağ Muğam Mərkəzinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev və Azərbaycan muğamı” adlı tədbir keçirilib. Mərkəzin səs müəllimi Əhəd Təhməzovun və 5-ci sinif şagirdi Səbuhi Əliyevin ifasında Ulu öndərin xüsusilə sevdiyi “Alagöz”, “Küçələrə su səpmişəm” mahnıları səsləndirilib.

Ağdam rayon Seyidli kənd Uşaq musiqi məktəbinin bir qrup müəllim və şagirdi Yevlax şəhərindəki Heydər Əliyev Muzeyini ziyarət edib.

***

İsmayıllı RMİ, rayon Heydər Əliyev Mərkəzi, F.Əzimov adına Uşaq incəsənət məktəbi, Tarix-Diyarşünaslıq Muzeyi, MKS və Mədəniyyət Mərkəzinin əməkdaşları tərəfindən “Heydər Əliyev İli” ilə əlaqədar ağacəkmə aksiyası təşkil edilib.

Şamaxı rayon Heydər Əliyev Mərkəzi və ADPU-nun Şamaxı filialının birgə təşkilatçılığı ilə rayon Mədəniyyət Mərkəzində gənclər arasında intellektual yarış keçirilib. “Zirvə” komandası I, “Dəmir yumruq” II, “Turan” isə III yerə layiq görülüb.

***

Şəki şəhər Uşaq incəsənət məktəbində “Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, mən azərbaycanlıyam” adlı tədbir keçirilib. Şagirdlər maraqlı musiqi nömrələri ilə çıxış ediblər.



Şəki şəhər MKS-nin Mərkəzi Kitabxanasında “Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü” adlı elmi-nəzəri konfrans keçirilib. Tədbirdə “Heydər Əliyev İli” və “Tarix yalnız şəxsiyyətləri yaşadır” adlı sərgilər nümayiş etdirilib.

***

Biləsuvar RMİ və Salyan Rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Azərbaycan mədəniyyətinin inkişafında Heydər Əliyevin rolu” mövzusunda tədbir keçirilib. Salyan Dövlət Kukla Teatrında keçirilən tədbirdə Heydər Əliyevin həyat və fəaliyyətinə həsr olunan videoçarx nümayiş etdirilib.

Salyan rayon Heydər Əliyev Mərkəzi və rayon İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə ümumtəhsil məktəb şagirdləri arasında “El bilir ki, sən mənimsən...” adlı şeir qiraəti müsabiqəsi keçirilib. Qaliblər fəxri fərman və hədiyyələrlə mükafatlandırılıb.

***





Ucar Tarix-Diyarşünaslıq Muzeyində “Heydər Əliyev və Azərbaycan mədəniyyəti” mövzusunda tədbir təşkil edilib. Məktəblilərin iştirak etdiyi tədbirdə Ümummilli liderin Azərbaycan mədəniyyətinin inkişafına diqqət və qayğısından söhbət açılıb, sərgi nümayiş etdirilib.

Zərdab rayon Qoruqbağı kənd Diyarşünaslıq klubu, Qoruqbağı və Yastıyol kənd kitabxana filiallarının birgə təşkilatçılığı ilə “Heydər Əliyev məktəblilərin gözü ilə” adlı məktəblilər arasında rəsm müsabiqəsi keçirilib.

Zərdab rayon MKS-nin Şahhüseynli kənd kitabxana filialının təşkilatçılığı ilə “Ümummilli lider Heydər Əliyev – 100” başlığı altında açıq kitabxana təşkil edilib.

***

Sabirabad rayon Heydər Əliyev Mərkəzində Ulu öndər Heydər Əliyevə həsr olunmuş “Unudulmaz gün” adlı sənədli film nümayiş olunub.

Sabirabad RMİ Sabirabad şəhər Üzeyir Hacıbəyli adına Uşaq musiqi məktəbində “Heydər Əliyev və Azərbaycan mədəniyyəti” adlı tədbir keçirilib. Şagirdlər Heydər Əliyevə həsr olunmuş şeirlər söyləyib, musiqi nömrələri səsləndiriblər.

Şirvan şəhər Mərkəzi Kitabxanasında “Heydər Əliyev və Azərbaycanda gender bərabərliyi” adlı tədbir təşkil olunub. Çıxışlarda Ümummilli liderin qadınların elm, təhsil, mədəniyyət və digər sahələrdə rolunun artırılmasına xüsusi diqqət yetirdiyi vurğulanıb.

Şirvan şəhər Heydər Əliyev Mərkəzi və şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə “Heydər Əliyev və Azərbaycanda milli intibah dövrü” mövzusunda konfrans keçirilib. Konfransın sonunda S.Hüseynov adına Şirvan şəhər 1 nömrəli tam orta məktəb-liseyin şagirdləri ədəbi-bədii kompozisiya təqdim ediblər.

***

Kürdəmir rayonunun mədəniyyət müəssisələri və YAP Kürdəmir rayon təşkilatının birgə təşkilatçılığı ilə “Milli mədəniyyətimiz Heydər Əliyev ideyalarından güc alır” adlı tədbir keçirilib. Çıxışlarda Heydər Əliyevin Azərbaycan mədəniyyətinə və incəsənətinə qayğısından söhbət açılıb.

***

Gəncə şəhər Heydər Əliyev Mərkəzinin dəstəyi, şəhər 4 nömrəli Uşaq musiqi məktəbinin təşkilatçılığı ilə “Heydər Əliyev və milli musiqimiz” adlı tədbir keçirilib. Gəncə RMİ-nin rəisi vəzifəsini müvəqqəti icra edən Süleyman Əliyev mövzu üzrə çıxış edib. Sonda Heydər Əliyevin həyatı və siyasi fəaliyyətini əks etdirən videoslayd təqdim olunub.

Xocalı şəhər 3 nömrəli Uşaq musiqi məktəbində Heydər Əliyevin 100 illiyinə həsr olunmuş bilik yarışı keçirilib.

***

Masallı Rayon İcra Hakimiyyətinin təşəbbüsü, rayon Tarix-Diyarşünaslıq Muzeyi, Dövlət Rəsm Qalereyası və Lənkəran-Astara Regional Təhsil İdarəsi Masallı rayonu üzrə təhsil sektorunun birgə təşkilatçılığı ilə “Heydər Əliyevin dövlətçilik irsi Azərbaycanın milli sərvətidir” mövzusunda tədbir keçirilib. Sonda şagirdlərin muzeyə və qalereyaya ekskursiyası təşkil olunub.

Yardımlı rayon Heydər Əliyev Mərkəzində rayon Bozayran kənd orta məktəbinin müəllim və şagird kollektivinin iştirakı ilə “Azərbaycan xalqının xilaskarı” mövzusunda tədbir keçirilib.

Cəlilabad rayon Heydər Əliyev Mərkəzinin təşkilatçılığı ilə “Heydər Əliyevin Cəlilabad rayonuna səfərlərindən xatirələr” adlı layihəyə başlanılıb. Layihə çərçivəsində ilk görüşdə YAP Cəlilabad rayon təşkilatının sədri Mirsüleyman Mirxaslı Ulu öndərin 1998-ci ildə Cəlilabad rayonuna səfəri ilə bağlı xatirələrini bölüşüb.

***

Sumqayıt Gənclər Kitabxanası, Heydər Əliyev Mərkəzi və Mədəniyyət İşçiləri Həmkarlar İttifaqı (MİHİ) Sumqayıt şəhər komitəsinin birgə təşkilatçılığı ilə Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan “Xəmsə” intellektual yarışı keçirilib. “Tarixin azərbaycanlı dahisi”, “Heydər Əliyev və mədəniyyət”, “Heydər Əliyev və neft strategiyası”, “44 günlük Vətən müharibəsi” adlı 4 turdan ibarət olan yarışda 1, 5, 12, 23 və 31 nömrəli tam orta məktəblərin 8-11-ci sinif şagirdləri iştirak ediblər. “Zəfər” komandası I, “Qələbə” komandası II, “Tusi” komandası isə III yerə layiq görülüb.

**Hazırladı: N.Məmmədli**

## Dövlət Turizm Agentliyinin əməkdaşları Ağdamda ekoloji aksiyada iştirak ediblər

Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə aprelin 11-də Dövlət Turizm Agentliyinin rəhbərliyi və əməkdaşları Ağdam rayonunda ağacəkmə aksiyasında iştirak ediblər.



Aksiya Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyi, Ekologiya və Təbii Sərvətlər Nazirliyi və Minatəmizləmə Agentliyinin (ANAMA) təşkilatçılığı ilə keçirilib.

Ağaclar mina və partlayıcı sursatlardan təmizlənmiş Ağdam Sənaye Parkının yaxınlığındakı ərazidə əkilib. Qarabağ və Şərqi Zəngəzur ərazisində biomüxtəlifliyin qorunması, su hövzələrinin zənginləşdirilməsi, balıq populyasiyasının artırılması məqsədilə Xaçınçay su anbarına 40 min ədəd çəkikimi balıq körpəsi buraxılıb.

## Ordubad Xalq teatrı Naxçıvanda tamaşa göstərib

Kazım Ziya adına Ordubad rayon Xalq teatrı yazıçı-dramaturq Əhməd Orucun “Oğru” musiqili komediyası əsasında hazırladığı eyniadlı tamaşanı aprelin 11-də Naxçıvan Dövlət Uşaq Teatrının səhnəsində nümayiş etdirib.



Tamaşanın rejissoru Naxçıvan MR-in Əməkdar mədəniyyət işçisi Günəş Ağayeva, quruluşçu rejissoru Nadir Məhərrəmovdur. Rolları Nadir Məhərrəmov, Süqarə Mirzəli, Nağı Əlisoy, Pınar Bilalova, Davud Məmmədov, Günəş Ağayeva canlandırıblar.

Gəncləri halallığa, həqiqətə qulluq edən yolun yolçuları olmağa səsləyən tamaşa alqışlarla qarşılanıb.

## Kitabxanada şair-publisistlə görüş

İmişli rayon Mərkəzi Kitabxanasında şair, publisist, Azərbaycan Yazıçılar Birliyinin əməkdaşı, Əməkdar mədəniyyət işçisi Qəşəm Nəcəfzadə ilə görüş keçirilib.



Görüşdə Kürdəmir RMİ-nin rəisi Faiq Xudanlı, mədəniyyət müəssisələrinin əməkdaşları, rayon ictimaiyyətinin nümayəndələri və fəal oxucular iştirak ediblər.

Ədəbiyyatşünas, şair Ramil Əhmədin moderatorluğu ilə gerçəkləşən görüşdə müəllifin yaradıcılığı haqqında məlumat verilib. Qeyd olunub ki, 20-dən çox kitabı işıq üzü görən müəllifin bir sıra əsərləri ingilis, fars və ispan dillərində də çap edilib.

Sonda şair oxucuların suallarını cavablandırıb.

## Muzey işinə həsr olunan seminar

Naxçıvan MR Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində muzey işinin təşkilinə həsr olunan seminar-treninq keçirilib.

Nazirliyin şöbə müdiri Gülbuta Babayeva muzey və muzeytipli müəssisələrdə uçot və mühafizə sahəsində əsas işin muzey fondlarının tərkibinin düzgün müəyyən edilməsindən başladığını diqqətə çatdırıb.

Sonra “Naxçıvanqala” kompleksinin baş fond mühafizi Murad Nəcəfzadənin məruzəsi dinlənilib. Məruzədə ölkəmizdə muzeyşünaslığın təşəkkül tapması, muzeylər şəbəkəsinin yaradılmasından, “Naxçıvanqala” kompleksindəki eksponatların tarixindən bəhs olunub. Bildirilib ki, hər bir muzey öz profilinə uyğun muzey əşyası toplamalıdır.

İştirakçıların sualları cavablandırılıb, mövzu ilə bağlı müzakirə aparılıb. Sonda muzeyin ekspozisiyasına baxış olub.

# Füzuliyə sakinlərin ilk qrupu 2024-cü ildə köçürüləcək

### Baş plana görə, şəhərdə əhalinin sayı 50 min nəfərə çatacaq

*əvvəli səh. 1-də*

Füzuli Beynəlxalq Hava Limanının inzibati binasında keçirilən iclasda Füzuli şəhərində aparılan tikinti-quruculuq fəaliyyəti ilə əlaqədar layihələndirmə işləri, Dövlətyarlı kəndinin “ağıllı kənd” konsepsiyası ilə bərpası, Füzuli şəhərinin daxili yol-küçə şəbəkəsinin layihələndirilməsi, rayonda ilkin mərhələdə bərpa ediləcək yaşayış məntəqələrinin elektrik enerjisi və su təminatı və digər məsələlər üzrə görülən işlər müzakirə olunub.

Dövlət Şəhərsalma və Arxitektura Komitəsi sədrinin birinci müavini Namiq Hümmətov bildirib ki, Füzuli rayonunda 2026-cı ilədək ümumilikdə 5678 evin (3352 fərdi yaşayış evi və 2326 mənzil) tikilərək istismara verilməsi nəzərdə tutulur. 2023-cü ildə 399, 2024-cü ildə 447, 2025-ci ildə 2317, 2026-cı ildə 2515 evin inşası həyata keçiriləcək və MİDA (Mənzil İnşaatı Dövlət Agentliyi) tərəfindən inşa olunan 846 mənzillik yaşayış kompleksinə 2024-cü ildə ilk əhali (2904 nəfər) köçürüləcək. 2026-cı ilədək rayonda tikiləcək evlərə 21 593 nəfər, o cümlədən Füzuli şəhərinə 8009 nəfər əhalinin köçürülməsi planlaşdırılır.



İclasda “İşğaldan azad edilmiş ərazilərdə əhalinin dayanıqlı məşğulluğunun təmin edilməsinə dair” Tədbirlər Planı, müvəqqəti yerləşdirilən kamplar, “Böyükbəhmənli-Şuşa” və “Azadqaraqoyunlu-Ağdam” magistral qaz kəmərlərinin layihələndirilməsi, Füzuli rayonunda su anbarlarının və sutəmizləyici qurğularının layihələndirilməsi və tikilməsinin vəziyyəti, Mədəniyyət Nazirliyinin Qələbə parkı və Memorial parkının layihələndirilməsi vəziyyəti barədə müzakirələr aparılıb.

Müzakirələrdən sonra ərazidə aparılan bir sıra tikinti-bərpa işləri ilə tanışlıq olub. Qazaxıstan tərəfindən inşa edilən Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinə, şəhər mərkəzdə tikilən çoxmənzilli binalara, həmçinin Özbəkistan tərəfindən inşa olunan 960 şagird yerlik orta məktəb binasında aparılan işlərə baxış keçirilib.

Qarabağ iqtisadi rayonuna daxil olan işğaldan azad edilmiş ərazilərdə (Şuşa rayonu istisna olmaqla) Prezidentin xüsusi nümayəndəsi Emin Hüseynov jurnalistlərə açıqlamasında bildirib ki, Kurmanqazı adına Yaradıcılığın İnkişafı Mərkəzinin, həmçinin 960 şagird yerlik tam orta məktəb binasının inşasının bu il yekunlaşması nəzərdə tutulur. Şəhərdə 38 binadan ibarət ilk yaşayış məhəlləsi də inşa olunmaqdadır. Təxminən 18 binanın inşası sentyabrda tamamlanacaq.

# Fikrət Əmirov haqqında film Bakıdakı Rus Evində nümayiş olunub

Aprelin 11-də Bakıdakı Rus Evində dünya şöhrətli Azərbaycan bəstəkarı, SSRİ Xalq artisti, Dövlət mükafatları laureatı Fikrət Əmirovun 100 illik yubileyi münasibətilə lentə alınmış filmin nümayişi olub.

Tədbirdə Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və diplomatik korpusun nümayəndələri, incəsənət xadimləri iştirak ediblər.

Rusiyanın Azərbaycandakı səfiri Mixail Boçarnikov qonaqları salamladıqdan sonra Xalq artisti, Azərbaycan Respublikası Kinematoqrafçılar İttifaqının sədri Şəfiqə Məmmədova filmlə bağlı düşüncələrini bölüşüb.

Fikrət Əmirovun qızı Sevil Əmirova atasının xatirəsinə göstərilən ehtirama görə tədbirin təşkilatçılarına və rejissora təşəkkür edib.



Filmin rejissoru Xalq artisti Vaqif Mustafayev Fikrət Əmirovun ailəsinə ekran işinin ərsəyə gəlməsində göstərdiyi köməkliyə, arxiv materiallarını təqdim etdiyinə görə minnətdarlığını bildirib.

Çıxışlardan sonra film nümayiş olunub. Böyük musiqi xadiminin həyat və yaradıcılığına həsr olunmuş ekran işi maraqla qarşılanıb.

Qeyd edək ki, film Mədəniyyət Nazirliyinin sifarişi ilə 2022-ci ildə lentə alınıb. Həmin ilin 19 dekabr tarixində Heydər Əliyev Sarayında ilk nümayişi keçirilib. Bədii-sənədli filmin ssenari müəllifi və rejissoru Vaqif Mustafayev, operatoru Orxan Abbasov, quruluşçu rəssamı Quram Navrozaşvili, səs rejissoru Sergey Netrunenko, məsləhətçisi Cəmil Əmirov, montaj rejissoru Əsgər Rəhimov, prodüseri Nazim Hüseynovdur.

## "Mən peyğəmbər deyiləm..."

Aprelin 18-də Beynəlxalq Muğam Mərkəzində "BakuOpeRArt" layihəsi çərçivəsində böyük rus bəstəkarı Sergey Raxmaninovun kamera-vokal lirikası axşamı keçiriləcək. Qeyd edək ki, bu il bəstəkarın anadan olmasının 150 illiyi geniş qeyd olunur.

Rusiya İnformasiya-Mədəniyyət Mərkəzinin mətbuat xidmətindən bildiriblər ki, "Mən peyğəmbər deyiləm..." adlı musiqi layihəsinin rəhbəri pianoçu Yuliya Kərimova digər sənətçilər – Əməkdar artistləri Fəridə Məmmədova (soprano), İlham Nəzərov (kontratenor) və Mahir Tağızadə ilə (bariton) bərabər Sergey Raxmaninovun poeziya və musiqinin ahəngində ruhun səmimiliyinə çevrilən böyük bədii dünyası barədə öz təsəvvürlərini dinləyicilərə təqdim edəcəklər.

## "Nağıllar aləminə səyahət" – məktəblilərin xeyriyyə tamaşası

Paytaxtdakı 220 nömrəli məktəb-liseyin şagirdlərinin hazırladığı "Nağıllar aləminə səyahət" adlı xeyriyyə tamaşası nümayiş olunub.



Azərbaycan xalq nağılları və dünya ədəbiyyatı nümunələri əsasında ərsəyə gətirilən səhnə əsəri təqdimatı işi Bakı Şəhəri üzrə Təhsil İdarəsinin (BŞTİ) təşəbbüsü ilə Azərbaycan Dövlət Gənc Tamaşaçılar Teatrında təqdim edilib.

Tamaşanı Prezident Administrasiyası Humanitar siyasət, diaspora, multikulturalizm və dini məsələlər şöbəsinin müdiri Fərah Əliyeva, elm və təhsil naziri Emin Əmrullayev, millət vəkilləri, BŞTİ-nin müdiri Mehriban Vəliyeva, "YAŞAT" Fondunun sədr müavini Rəbiyyə Cəfərova, şəhid ailələrinin üzvləri və məktəblilər izləyiblər.

Humanizm və ümumbəşəri dəyərlərin təbliğ olunduğu tamaşanın əsas məqsədi nağıl qəhrəmanlarının dili ilə dünya uşaqlarının sülh, əmin-amanlıq şəraitində yaşamaq istəyini, dostluğa və sülhə çağırış mesajlarını çatdırmaqdan ibarətdir.

İnklüziv sinif şagirdlərinin də iştirak etdiyi tamaşanın nümayişindən əldə olunan vəsait "YAŞAT" Fonduna köçürülüb.

## "Niyazinin not əlyazmaları" kitabı çapdan çıxıb

Görkəmli dirijor və bəstəkar Niyazinin not əlyazmalarının toplandığı kitab çapdan çıxıb. Nəşr AMEA-nın Memarlıq və İncəsənət İnstitutunun Azərbaycan xalq musiqi tarixi və nəzəriyyəsi (Musiqi folkloru) şöbəsində "Milli musiqi irsimizin açılmamış səhifələri (arxiv materialları əsasında)" layihəsi əsasında hazırlanıb. Layihənin rəhbəri sənətşünaslıq doktoru, professor İradə Köçərlidir.

AMEA-dan bildirilib ki, kitab 3 bölmədən ibarətdir. Kitabın I bölməsi İradə Köçərlinin "Niyazi və Azərbaycan musiqi folkloru" adlı məqaləsi ilə başlayır. Musiqişünas burada Azərbaycan xalq musiqisinin toplanması və yazıya alınmasında Niyazinin xidmətlərindən bəhs edir. Müəllif "İrəvanda xal qalmadı" xalq mahnısının əsil bayatı sözləri – gerçək mətni ilə birlikdə ilk dəfə məhz Niyazi tərəfindən nota salındığını vurğulayır, bayatının yaranması prosesini izləməklə musiqili-nəzəri cəhətdən təhlil edir.

Sənətşünaslıq üzrə fəlsəfə doktoru Fəttah Xalıqzadə "Azərbaycan xalq musiqisinin toplanması və yazıya alınmasında Niyazinin rolu" adlı məqaləsində maestronun 1934-cü ildə iştirak etdiyi Lənkəran ekspedisiyası haqqında ətraflı danışaraq, onun həyat və yaradıcılığına dair maraqlı faktları diqqətə çatdırır.

Kitabın II bölməsində Memarlıq və İncəsənət İnstitutunun arxivindən əldə edilmiş qovluqlarda qorunub saxlanılan xalq mahnılarının əlyazmalarının, III bölmədə isə 47-ci qovluqdan "50 Azərbaycan xalq havası"nın elektron yazısı verilib. Kitabdakı əlavəyə Niyazinin Mənzil-Muzeyindən əldə edilmiş not əlyazmaları daxil edilib.

Nəşrin layihə rəhbəri, əsas tərtibçisi və elmi redaktoru professor İradə Köçərli, tərtibçiləri




Mehriban Paşayeva, Səidə Köçərli, Leyla Aslanova, Zülfiyyə Musayeva, Arzu Həsənova, Səmərə Qafarlıdır.



## Akademik Rus Dram Teatrı Sankt-Peterburqda "Maskarad" göstərib

### Kollektivin uğurlu çıxışı diplomla mükafatlandırılıb

Sankt-Peterburq şəhərində "Rusiyada görüşlər" adlı XXV Beynəlxalq Teatr Festivalı keçirilir. 7-16 aprel tarixlərini əhatə edən festival bu il görkəmli rus dramaturqu Aleksandr Ostrovskinin (1823-1886) 200 illiyinə həsr olunub.

Teatr bayramında Azərbaycan, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkmənistan, Qırğızıstan və digər ölkələrdən aparıcı kollektivlər iştirak edir.

Ölkəmiz festivalda Səməd Vurğun adına Azərbaycan Dövlət Akademik Rus Dram Teatrı ilə təmsil olunur. Kollektiv festivalda Azərbaycanın Xalq artisti Aleksandr Şarovskinin quruluşunda M.Lermontovun "Maskarad" tamaşasını nümayiş etdirib.

Aprelin 8-də təqdim edilən səhnə əsəri tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Kollektiv festivalın təşkilat komitəsi tərəfindən diploma layiq görülüb.

Festival çərçivəsində "Rus teatrı xaricdə rus mədəniyyəti institutu kimi" adlı IV beynəlxalq konfrans da keçirilib. Konfransda MDB ölkələrindən rus teatrlarının bədii rəhbərləri və baş rejissorları iştirak ediblər.

Rusdilli teatr incəsənətinin aktual məsələlərinin müzakirəsi üçün peşəkar diskussiya məkanı olan festivalda həm də ən yaxşı tamaşalar təqdim edilir, təcrübə mübadiləsinə şərait yaradılır.

Festival çərçivəsində tamaşaların müzakirəsi, ustad dərsləri, yaradıcılıq görüşləri də keçirilir. Eyni zamanda festivalın yubileyi ilə bağlı "İyirmi beş il birlikdə" adlı MDB dövlətlərindəki rus teatrlarının tamaşalarına dair fotosərgi də açılıb, 25 ildə iştirakçı teatrlarda ən maraqlı quruluşlar barədə məlumat verilir.

## "Mirzə Şəfi Vazehin Şərq lirikası Qərb musiqisində"

Aprelin 15-də Beynəlxalq Muğam Mərkəzində "Mirzə Şəfi Vazehin Şərq lirikası Qərb musiqisində" adlı konsert təşkil olunacaq.

Konsertdə beynəlxalq müsabiqələr laureatları – Əməkdar artist İlham Nəzərov (vokal) və Züleyxa Abdulla (piano) çıxış edəcəklər.

Konsert proqramında görkəmli İsveçrə bəstəkarı H.Huberin romans silsiləsi Bakıda ilk dəfə təqdim olunacaq. Görkəmli Azərbaycan şairi və mütəfəkkiri Mirzə Şəfi Vazehin (1794-1852) şeirlərinə yazılmış bu silsilənin notları İsveçrədə 140 il əvvəl, 1882-ci ildə nəşr edilib.

Musiqi axşamında eyni zamanda Avropa klassik musiqisində romantizm dövrü bəstəkarlarının fortepiano üçün əsərləri də ifa olunacaq.

Xatırladaq ki, Mirzə Şəfi Tiflisdə yaşadığı dövrdə qəzəllərini alman şərqşünas Fridrix Bodenştedtə (1819-1892) hədiyyə edib. Bodenştedt qəzəlləri almancaya çevirərək öz imzası ilə nəşr etdirib. Kitab Avropada geniş yayılıb və bu şeirlərə musiqilər də bəstələnib. İllər sonra o, poetik incilərin Mirzə Şəfiyə məxsus olduğunu etiraf edib.

## Dünyalara sığmayan eşq dastanı

### "Leyli və Məcnun" marionet tamaşasının nümayişi başlanır

"İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin nəzdində fəaliyyət göstərən Bakı Marionet Teatrı "Leyli və Məcnun" tamaşasının nümayişinə başlayır.



Teatrdan bildirilib ki, tamaşa aprel ayında üç dəfə (15, 22, 29 aprel) sənətsevərlərə təqdim olunacaq.

Tamaşanın quruluşçu rejissoru və rəssamı Tərlan Qorçu, musiqi aranjimançısı, Xalq artisti Salman Qəmbərov, kukla ustası Tengiz Xalvaşı, işıq işləri üzrə rəssam Azər Muxtarov, səhnə qurğularının müəllifi İlkin Mirzəyevdir.

Səhnə əsəri ürkək və vəfalı gənclərin dünyalara sığmayan bir eşq hekayəsindən bəhs edir. Leyli və Məcnun bir-birini canından artıq sevsələr də, bu dünyada arzularına qovuşmaq onlara nəsib olmur...

Tamaşada Avropa klassik ədəbiyyatının Tristan və İzolda, Romeo və Cülyetta kimi obrazlarının Leyli və Məcnunla birbaşa analogiyası da diqqət çəkir.

Qeyd edək ki, Bakı Marionet Teatrı Üzeyir Hacıbəylinin ölməz "Leyli və Məcnun" muğam operasının 14 pərdəlik marionet tamaşası üzərində 3 il iş aparıb. Tamaşanın premyerası 2016-cı ilin dekabrında keçirilib. Kollektiv bu səhnə işi ilə bir sıra ölkələrdə festivallara da qatılıb.

"Heydər Əliyev İli"

# Mədəniyyətimizin böyük hamisi



Ümummilli lider Heydər Əliyev böyük siyasətdə olduğu bir qərinədən artıq dövrdə, doğma xalqının taleyində tarixi rol oynamaqla bərabər, mədəni irsimizin qorunması və zənginləşdirilməsi, milli incəsənətin, ədəbiyyatın inkişafı, respublikada mədəni-maarif işinin qabaqcıl səviyyədə təşkili sahəsində də müstəsna xidmətlər göstərib.

Heydər Əliyevin mədəniyyətə diqqət və qayğısı onun dövlət xadimi kimi fəaliyyətinin bütün mərhələlərində – sovet Azərbaycanına rəhbərlik etdiyi illərdə, Moskvada, SSRİ rəhbərliyində çalışdığı vaxtda və müstəqil Azərbaycana onillik prezidentliyi dövründə tarixin yaddaşına çoxsaylı səhifələr yazıb. O, hər zaman və hər yerdə Azərbaycan mədəniyyətinin böyük hamisi olub. Bununla bağlı illərin xronikasından seçdiyimiz məqamları "Heydər Əliyev İli"nə töhfə olaraq diqqətinizə təqdim edirik...

## İllərin xronikasından (25)

### 1981-ci il 27 mart

Azərbaycan KP MK-nın Birinci katibi Heydər Əliyev Bakıda məşhur rus bəstəkarı, SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı Dmitri Kabalevskinin müəllif konsertinə tamaşa etdikdən sonra yaradıcı heyətlə görüşüb.

### 1981-ci il 2 aprel

Heydər Əliyev SSRİ Rəssamlıq Akademiyası Rəyasət Heyətinin və Rəssamlıq təhsili üzrə elmi-metodik Şurasının Bakıda keçirilən geniş iclasında çıxış edib.

### 1981-ci il 5 aprel

Heydər Əliyev Azərbaycan kinematoqrafçılarının V qurultayında iştirak edib.

### 1981-ci il 11 aprel

Səməd Vurğun adına Azərbaycan Dövlət Rus Dram Teatrının 60 illiyinə həsr edilən təntənəli mərasim keçirilib. Heydər Əliyev mərasimdə çıxış edib.

*"...Artistin, səhnə işçisinin sənəti mürəkkəb işdir, istedaddan əlavə çox böyük mənəvi və fiziki gərginlik, fədakarlıq, daha doğrusu, fədailik tələb edən bir işdir. Dərin razılıq hissi ilə demək olar ki, Rus Dram Teatrının işçiləri özlərinin gündəlik fəaliyyəti ilə öz şərəfli borcuna sədaqətlə, fədakarlıqla xidmət nümunələri göstərir, var qüvvələrini çoxmillətli sosialist incəsənətimizin inkişafına sərf edirlər.*

*60 illik dolğun və mənalı tarixi ərzində Rus Dram Teatrı Azərbaycan mədəniyyətini, bütün çoxmillətli sovet incəsənətini gözəl yaradıcılıq nailiyyətləri ilə zənginləşdirmişdir. Bu, Azərbaycanda rus teatrı xadimlərinin bütün nəsillərinin böyük fədakar əməyinin nəticəsidir. Odur ki, biz onların xidmətlərini layiqincə qiymətləndiririk. Bununla birlikdə biz səhnə ustalarının indiki nəslinə – artistlərə və rejissorlara, rəssamlara və sex işçilərinə, bu gün bu salonda olan və şanlı yubileyi qeyd edən bütün teatr işçilərinə xüsusi minnətdarlıq və dərin ehtiram hisslərimizi ifadə edirik...*

*Azərbaycan Dövlət Rus Dram Teatrı 50 illiyi ilə əlaqədar olaraq "Qırmızı Əmək Bayrağı" ordeni ilə təltif edilmişdi. 60 illik yubileyi ilə əlaqədar olaraq teatr Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri fərmanına layiq görülmüşdür. Sizi ürəkdən təbrik edir və respublikamızın yüksək mükafatını sizə təqdim etmək kimi şərəfli və xoş bir tapşırığı böyük məmnuniyyətlə yerinə yetirirəm...".*

### 1981-ci il 7 iyun

Heydər Əliyev Bakının Şüvəlan qəsəbəsində yazıçıların Yaradıcılıq evinin açılış mərasimində iştirak edib.

### 1981-ci 12 iyun

Heydər Əliyev Azərbaycan yazıçılarının VII qurultayında nitq söyləyib.

*"...Azərbaycan yazıçıları öz növbəti qurultayına böyük nailiyyətlərlə gəliblər. Bunu da qeyd etmək vacibdir ki, ötən illərdə respublika yazıçılar təşkilatının yaradıcılıq həyatı və ictimai fəaliyyəti nəzərəçarpacaq dərəcədə canlanmışdır... Son illər müxtəlif nəsillərə mənsub bir çox sənətkara fəxri adlar – Xalq yazıçısı, Əməkdar incəsənət xadimi və Əməkdar mədəniyyət işçisi adları verilmişdir. Bir sıra ədəbiyyatçılar Sovet İttifaqı ordenlərinə, SSRİ və respublika Dövlət mükafatlarına layiq görülmüşlər. Süleyman Rəhimova, Süleyman Rüstəmə, Rəsul Rzaya Sosialist Əməyi Qəhrəmanı kimi şərəfli ad verilmişdir. Bu mükafatlarla bütün Azərbaycan yazıçılarının yaradıcı əməyi yüksək qiymətləndirilir...*

*Hər bir sənətkar öz xalqının övladıdır və onun tarixi qarşısında məsuliyyət daşıyır... Mədəniyyətin milli sərvətlərinin demək olar, əsas mühafizəçisi olan yazıçının yüksək vətəndaşlıq vəzifəsi xalqın tarixini onun müasir mədəniyyətinə xidmət göstərməyə cəlb etməkdir. Qoy bu çətin yolda sizə Səməd Vurğun yaradıcılığının parlaq nümunəsi ilham versin - Səməd Vurğun ölməz "Vaqif" dramında böyük Azərbaycan şairinin tarixi obrazını yaratmış, o dövrün ictimai-siyasi həyatını heyrət doğuran məharətlə canlandırmışdır.*

*Qeyd etmək istəyirəm ki, tarixi simaların obrazları yaradılan və tariximizin çox mühüm dövrləri tərənnüm olunan ədəbi əsərlər ən yüksək səviyyədə yazılmalıdır. Bunlar çox mühüm, açıq deyək ki, mürəkkəb mövzulardır. Belə mövzuların öhdəsindən yalnız yüksək istedadlı, dərin bilikli sənətkarlar gələ bilərlər. Buna görə də tarixi mövzuda əsərlər yaratmağa girişməzdən əvvəl ədib öz qüvvə və imkanlarını götür-qoy etməli, böyük və ciddi hazırlıq işi aparmalıdır.*

*Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi Azərbaycan ədəbiyyatı klassiklərinin solmaz yaradıcılığının öyrənilməsinə və təbliğinə böyük diqqət verir. Bunu təkcə son illərdə Mərkəzi Komitənin qəbul etdiyi xüsusi qərarlar sübut edir...*

*Yaradıcı tərcümənin böyük və nəcib vəzifəsini bizim ən qüvvəli yazıçılarımız şərəflə yerinə yetirməlidirlər... Azərbaycan Kommunist Partiyasının Mərkəzi Komitəsi bu məsələlərə prinsipial əhəmiyyət verərək respublikada tərcümə işinin vəziyyətini xüsusi müzakirə etmək və onun əsaslı surətdə yaxşılaşdırılması üçün müvafiq tədbirlər görmək niyyətindədir.*

*Bir məsələyə də toxunmaq istəyirəm. Respublika Yazıçılar İttifaqının tərkibində Cənubi Azərbaycandan olan ədəbiyyatçılar da məhsuldar işləyirlər. Yaradıcılıq İttifaqının rəhbərliyi onlara daim diqqət yetirməli, onların əsərlərini respublikada və respublikanın hüdudlarından kənarda geniş təbliğ etməlidir. Ümumiyyətlə, Cənubi Azərbaycanla ədəbi əlaqələri möhkəmlətmək, mədəniyyətin, mənəvi yaradıcılığın bütün sahələrində geniş əlaqələri inkişaf etdirmək, bizdə toplanmış zəngin bədii-estetik təcrübəni qələm yoldaşlarına vermək barəsində düşünmək lazımdır.*

*Azərbaycan ədəbiyyatının sabahkı gününə qayğı göstərmək respublika Yazıçılar İttifaqının ən mühüm vəzifəsidir. Birinci növbədə ədəbiyyata təzə qüvvələr gəlməsi, gənc istedadların aşkara çıxarılması və tərbiyə edilməsi qayğısına qalmaq lazımdır... Yazıçılar təşkilatının fəaliyyətində kollegiallıq, əsl demokratik ruh hökm sürməlidir, elə bir şərait yaranmalıdır ki, hər kəs öz fikirlərini və şübhələrini ifadə edə bilsin. Cəmiyyətimizin sınanmış silahı olan tənqid və özünütənqiddən daha fəal istifadə edilməlidir...".*

**Hazırladı: V.Orxan**

*(davamı var)*

# Heydər Əliyev və Türk dünyası

## Türkdilli xalqların inteqrasiyası yolunda Ulu öndərin müəllifi olduğu təşəbbüslər bu gün geniş coğrafiyada əməkdaşlığa meydan açıb

*Heydər Əliyevin tariximizdəki müstəsna xidmətlərindən biri də ötən əsrin 90-cı illərində Azərbaycanın Türkiyə ilə, eləcə də bizim kimi müstəqillik qazanmış Mərkəzi Asiyanın türkdilli respublikaları ilə sıx tərəfdaşlıq münasibətlərinin qurulması, ümumtürk həmrəyliyinin mədəni-mənəvi əsaslarının gücləndirilməsi yolunda gördüyü işlərdir. Ulu öndərin 100 illik yubileyinin qardaş türk ölkələrində də qeyd edilməsi onun bu tarixi xidmətlərinə verilən yüksək dəyərin, Türk dünyasının böyük şəxsiyyətinin xatirəsinə göstərilən dərin ehtiramın göstəricisidir. On il əvvəl qələmə alınan bu yazını təkrar dərc etməklə dahi siyasət və dövlət adamının Türk dünyasının birlik və bərabərliyi naminə fəaliyyətini bir daha oxucuların diqqətinə çatdırmaq istəyirik.*

*"Xalqlarımızın böyük tarixini yenidən qiymətləndirmək, hər bir xalqın tarix boyu yaratdığı mənəvi dəyərləri, mədəniyyət abidələrini bütün xalqlar üçün doğma etmək bizim bu görüşlərin mərkəzində duran vəzifələrdir. Bizim köklərimiz bir dilə, bir mənəviyyata, bir dinə bağlı olduğuna görə çox dərindir və mənəvi dəyərlərimiz tarixin bütün mərhələlərində nə qədər çətinliklərlə rastlaşıbsa da, dayanmayıb, inkişaf edib. İndi isə türkdilli xalqların müstəqil dövlətləri olduğuna görə və bizim əlimizdə böyük imkanlar yarandığına görə bu prosesləri daha da gücləndirə, daha da mütəşəkkil edə bilərik. Bu, bizim borcumuzdur".*

Böyük siyasətçi, müasir Azərbaycan dövlətinin qurucusu Heydər Əliyev bu sözləri 1996-cı il noyabrın 6-da TÜRKSOY-un Bakıdakı toplantısı çərçivəsində keçirilən Türk dünyası yazıçılarının III qurultayında söyləyib.

Adətən deyirlər ki, tarix şəxsiyyəti yaradır, amma böyük şəxsiyyətlər də öz əməlləri ilə tarix yazır, onu istiqamətləndirirlər. Heydər Əliyev dövrün və zamanın gərdişini gözəl bilən dövlət rəhbəri kimi Azərbaycanın beynəlxalq aləmdə, o cümlədən Türk dünyasında aparıcı mövqelərə çıxması, ümumtürk həmrəyliyinin təmin olunmasında böyük rol oynamışdır. Təsadüfi deyil ki, bu gün onun adı türk toplumlarında da hörmətlə anılır, türk dövlətlərinin inteqrasiyasında rolu məmnunluqla qeyd olunur.

### Milli suverenlik və səmimi dostluq

Heydər Əliyevin 1993-cü ildə ölkə rəhbərliyinə qayıdışı nəticə etibarilə təkcə Azərbaycan dövlətçiliyi üçün deyil, eyni zamanda yeni müstəqillik əldə etmiş digər türk dövlətlərinin inkişafı üçün önəmli hadisə idi. Çünki həmin dövrdə məkr və küdurətdə əlbir olan xarici qüvvələrin səyləri ilə gənc Azərbaycan dövlətinin məhv edilməsi postsovet məkanındakı digər türk respublikaları üçün də acınacaqlı nəticələr doğura bilərdi. Azərbaycan dövlətinin iflası həmin ölkələrin də böyük güclərin geosiyasi əsarətinə keçməsinə, "velikorus" şovinizminin yeni imperiya boyunduruğuna düşməsinə yol aça bilərdi. Heydər Əliyev Azərbaycanın müstəqilliyini və dövlətçiliyini qorumaqla digər türk dövlətlərinin bərabərliyi, gələcək tərəfdaşlığı üçün tarixi xidmət göstərmiş oldu.

1992-1993-cü illər hakimiyyəti dövründə Azərbaycanda ümumtürk həmrəyliyinin dar çərçivədə, yalnız Türkiyə ilə münasibətlərdə təşviq edilməsi, Mərkəzi Asiyanın türk respublikaları ilə münasibətlərin gözardı edilməsi xarici siyasətdə boşluqlara yol açmışdı. Rəsmi Bakı bəzən bu respublikalara "demokratiya dərsi" keçmək missiyasını da üzərinə götürməyə təşəbbüs edirdi. Nəticədə Azərbaycanın Qazaxıstan, Özbəkistan kimi iri türkdilli respublikalarla münasibətləri soyumuşdu. Xarici qüvvələrin dəstəklədiyi Ermənistanla müharibədə ölkəmiz, Türkiyə istisna olmaqla, digər türk ölkələrinin hətta mənəvi dəstəyindən də məhrum olmuşdu.

Məhz buna görə Heydər Əliyev Azərbaycanın siyasi rəhbərliyinə qayıtdığı gün, 1993-cü ilin 15 iyununda Ali Sovetdə proqram xarakterli çıxışında xarici siyasətin önəmli istiqaməti kimi türkdilli dövlətlərlə işbirliyini qeyd etmişdi: "Xarici siyasət sahəsində görüləsi işlər çoxdur. Birinci növbədə, yaxın qonşularımızla sıx münasibətlər yaradılmalıdır. Bu baxımdan Türkiyə ilə əlaqələr, şübhəsiz ki, önəmli yer tutur. Eyni zamanda, keçmiş Sovetlər İttifaqına daxil olan türkdilli ölkələrlə əlaqələrimiz sürətlə inkişaf etməlidir. Bizim bu dövlətlərlə əlaqələrimiz uzun illər çox yaxın olub. Bu əlaqələri qırmaq olmaz, əksinə, inkişaf etdirmək lazımdır".

Bu siyasət türkdilli xalqların inteqrasiyasında pafosdan uzaq səmimi dostluğu və qarşılıqlı faydalı tərəfdaşlığı ehtiva edirdi. İnteqrasiya sözdə yox, əməldə olmalı və həmin müstəvidə hər türkdilli dövlət öz yerini tapmalı, potensial imkanları ilə bu həmrəyliyə praktik töhfə verməli idi.

### Ortaq keçmişdən müştərək gələcəyə: "Heç bir qüvvə bizi ayıra bilməyəcək"

Bundan sonra Azərbaycanın dünyaya açılmasında, o cümlədən türk dövlətləri ilə münasibətlərdə real addımlar atıldı. Heydər Əliyev sonralar bu inteqrasiyanın mahiyyətini türk ideoloqu İsmayıl bəy Qaspiralının məşhur kəlamı ilə belə ifadə etmişdi: "XX əsrin əvvəllərində türk xalqlarını yaxınlaşdırmaq, onları vahid siyasi, iqtisadi və mədəni gücə çevirmək istəyən görkəmli şəxsiyyətlərimiz "Dildə, fikirdə və əməldə birlik" şüarı ilə çıxış edirdilər. Biz uzun mübarizələrdən sonra XX əsrin sonunda bu imkana nail olmuşuq. Şübhəsiz, indiki şəraitdə türkdilli dövlətlərin qarşılıqlı əməkdaşlığı bu sahədəki uğurlarımızı daha da artıracaqdır".

Bu baxımdan Azərbaycan-Türkiyə əlaqələrinin keyfiyyətcə yeni məcrada, hər hansı siyasi konyukturaya yer verməyən əsasda qurulması xüsusi önəm kəsb edirdi. Çünki Heydər Əliyevdən öncəki hakimiyyət dövründə bu əlaqələrdə şüarçılıq özünə daha çox yer tapmışdı, münasibətlər bir çox hallarda iki ölkədəki populist siyasətçilərin bəyanatları ilə yönəldilirdi.

Yeri gəlmişkən, Heydər Əliyev hakimiyyətə gələndən sonra həmin populist qüvvələr Azərbaycanın guya Türkiyədən uzaqlaşacağı, Rusiyanın boyunduruğuna düşəcəyi barədə iddialar səsləndirməyə başlamışdı. Ölkəmizin 1993-cü ilin sentyabrında MDB-yə üzv olması həmin dairələr tərəfindən spekulyasiya mövzusuna çevrilmişdi.

Heydər Əliyev 1994-cü ilin 9 fevralında qardaş ölkəyə ilk rəsmi səfəri zamanı Türkiyə Böyük Millət Məclisində etdiyi tarixi çıxışında həmin ittihamları rədd edərək MDB üzvlüyünün ölkəmizin suverenliyinə və Türkiyə ilə münasibətlərə xələl gətirməyəcəyini bildirdi. Əksinə, bununla Azərbaycanın MDB-dəki türk respublikaları ilə əməkdaşlığına zəmin yarandığını diqqətə çatdırdı: "Biz bu birliyə daxil olmaqla nə uduzduq? Heç nə uduzmadıq, amma qazandığımız o oldu ki, vaxtilə möhkəm, sıx əlaqələrimiz olan respublikalarla əlaqələri saxlayaraq iqtisadiyyatımızın inkişafı üçün müəyyən şərait yaradırıq".

Heydər Əliyev iki ölkənin strateji tərəfdaşlığının tarixi formulunu da bəyan etmişdi: "Azərbaycan və Türkiyə bir millət, iki dövlətdir". Sonralar dillər əzbəri olan bu sözlər ölkələrimizin qardaşlıq münasibətlərinin kredosuna çevrildi.

Azərbaycan Prezidenti TBMM-dəki nitqində qardaş ölkələrin ortaq tarixi irs üzərində gələcəyə birgə addımlayacağını vurğuladı: "Biz kökü bir olan xalqıq. Bizim tariximiz bir, dilimiz bir, dinimiz birdir. Ona görə də tariximiz, milli köklərimiz, adət və ənənələrimizin hamısı bizi bir-birimizə sıx bağlayıbdır. Əsrlər boyu tarixin bütün mərhələlərində bizi bir-birimizdən ayırmağa çox çalışsalar da, buna müvəffəq olmamışlar. Xalqlarımız bu həsrətlə yaşayıblar və nəticədə də bir-birinə qovuşublar. Bundan sonra heç bir qüvvə bizi ayıra bilməyəcəkdir. 1918-ci ildə Türk ordusunun Azərbaycana, Bakıya gəlməsi, Azərbaycanı daşnakların təcavüzündən xilas etməsi hər bir azərbaycanlının qəlbində yaşayır. 1923-cü ildə qurulan Türkiyə Cümhuriyyəti müstəqil Azərbaycan Respublikası üçün örnəkdir".

### Üç dənizin əfsanəsi – Türk dünyasını bağlayan kəmər

Heydər Əliyevin Azərbaycanın rəhbərliyinə gəlişi ilə Türkiyə ilə münasibətlər gerçək tərəfdaşlıq, qarşılıqlı fayda üzərində təşəkkül tapdı. O, Azərbaycana rəhbərlik etdiyi 10 ildə dəfələrlə Türkiyədə səfərlərdə olmuş, Türkiyənin dövlət və hökumət rəhbərləri Azərbaycana çoxsaylı səfərlər etmişlər. Bu təmaslar müxtəlif beynəlxalq və regional tədbirlərdə də davam edirdi. Təkcə bir faktı qeyd etmək yetər ki, Heydər Əliyev onillik prezidentliyi dövründə xarici ölkələrin rəhbər şəxsləri ilə 500-dən çox görüş keçirmiş, bu görüşlərin təxminən 100-ü Türkiyənin payına düşmüşdü. Bu intensiv təmaslar, daimi məsləhətləşmələr fonunda iki ölkənin xarici siyasəti sıx koordinasiya içində bir-birini tamamlayırdı. Azərbaycan müstəqil dövlət quruculuğunda üzləşdiyi çətinliklərdə hər zaman Türkiyəni yanında gördü, eyni zamanda, atdığı addımlarda, həyata keçirdiyi iqtisadi layihələrdə daima Türkiyəni göz önündə tutdu.

Yeri gəlmişkən, 1994-cü ildə Azərbaycan xarici neft şirkətləri ilə ilk müqaviləni ("Azəri-Çıraq-Günəşli") imzalayanda Türkiyənin payı (TPAO şirkəti) cüzi - 1,75 faiz idi. Bunun səbəbi türk şirkətinin müqavilə üzrə danışıqlara gec qoşulması, Qərb sərmayədarları ilə müqayisədə astagəllik etməsi olmuşdu. Lakin sonradan Heydər Əliyev Azərbaycanın layihədəki payı hesabına Türkiyəyə əlavə 5 faiz ayırılması barədə qərar verdi. Nəticədə Türkiyə "Əsrin müqaviləsi"nin mühüm iştirakçılarından birinə çevrildi.



**Türk dünyasının üç böyük şəxsiyyəti bir fotoda: Heydər Əliyev və Çingiz Aytmatov Əmir Teymurun abidəsi önündə**

1996-cı ildə Azərbaycanın imzaladığı ikinci böyük müqavilə - "Şahdəniz" layihəsində Türkiyəyə daha yüksək - 9 faiz pay ayrıldı. Ümumilikdə Azərbaycanın ayrı-ayrı neft-qaz layihələrində Türkiyə 35 faiz pay əldə etdi.

Heydər Əliyevin bu tərəfdaşlığa verdiyi ən böyük töhfə isə ölkəmizin enerji ehtiyatlarının Bakı-Tbilisi-Ceyhan neft kəməri vasitəsilə Türkiyə üzərindən dünyaya açılması oldu. Əsas ixrac neft kəmərinin Türkiyənin Aralıq dənizindəki Ceyhan limanına çəkilməsi Heydər Əliyevin mürəkkəb geosiyasi şəraitdə, dünya gücləri və neft nəhəngləri ilə gərgin danışıqlarda nümayiş etdirdiyi çevik diplomatiya hesabına mümkün olmuşdu. "Şübhəsiz, mənim ürəyimdən keçən arzu bu xətti Ceyhana çəkməkdir. Onun çəkilməsi tək məndən asılı deyil. Konsorsiumda 11 xarici neft şirkəti var. Amma hər şeyi vaxtı gələndə həll edəcəyik", - deyə o, 1996-cı il noyabrın 13-də Türkiyə jurnalistlərinə müsahibəsində bildirmişdi.

1999-cu ilin noyabrında İstanbulda Bakı-Tbilisi-Ceyhan neft kəmərinə dair hələdici qərar verildi, ilkin hökumətlərarası saziş imzalandı. "İstanbul bəyannaməsi"nə Azərbaycan, Türkiyə, Gürcüstanın dövlət başçıları və layihəyə dəstək verən ABŞ rəhbəri Bill Klintonla yanaşı, Qazaxıstan Prezidenti Nursultan Nazarbayevin də imza atması kəmərə daha böyük regional önəm qazandırdı. Qazaxıstanın bu layihəyə qoşulmasında Heydər Əliyevin mühüm təşəbbüskar rolu olmuşdu. 2002-ci ildə boru xəttinin təməli atıldı və beləcə üç dənizin (Xəzər, Qara və Aralıq dənizləri) əfsanəsi gerçək oldu. Eyni zamanda, Bakı-Ceyhan Türk dünyasını (Orta Asiyadan Türkiyəyədək) bir-birinə bağlayan strateji kəmərə çevrildi, bu gün Qazaxıstan da neftinin bir hissəsini bu marşrutla ixrac edir.

Bu, uzaqgörən siyasətin real nəticəsidir. Bakı-Ceyhan kəməri yeni regional enerji və nəqliyyat layihələrinə zəmin yaratdı, onun ardınca Bakı-Tbilisi-Ərzurum qaz xətti istifadəyə verildi. Hazırda inşası davam edən Bakı-Tbilisi-Qars dəmiryolu xətti təkcə Azərbaycan-Türkiyə əlaqələrinə deyil, eləcə də Mərkəzi Asiya respublikalarının Xəzər və Azərbaycan üzərindən Türkiyəyə bağlanmasına, Avropa-Asiya nəqliyyat dəhlizinə tarixi töhfə olacaq.

### Xəzərdə birləşən dostluq telləri: "Bizim əməkdaşlığımız zamanın hökmüdür"

Heydər Əliyev Türkiyə ilə qardaşlıq bağlarını möhkəmlətməklə bərabər, Mərkəzi Asiyadakı türk respublikaları ilə sıx əməkdaşlığı da daima prioritet saymışdır. Çünki Azərbaycan bu coğrafiyadakı strateji yerinə, güclü iqtisadi və infrastruktur imkanlarına görə Türkiyə və Mərkəzi Asiyanın türk ölkələri arasında əvəzolunmaz körpüdür. Heydər Əliyevin prezidentliyi dövründə bu körpü real tərəfdaşlıq müstəvisi kimi təşəkkül tapdı və möhkəmləndi.

Hərçənd Azərbaycanın 1992-1993-cü illərdə Xəzərin o tayındakı türk respublikaları ilə sərin münasibətləri bu tərəfdaşlıqda arzuolunmaz fon yaratmışdı və onu qısa zamanda aradan qaldırmaq asan deyildi. Heydər Əliyev 1994-cü ilin 18 oktyabrında türk dövlət başçılarının İstanbul sammitində bu gerçəyi etiraf etmişdi: "Ötən müddətdə Azərbaycan tərəfinin buraxdığı səhvlər nəticəsində Azərbaycanın Qazaxıstanla, Özbəkistanla, Türkmənistanla, Qırğızıstanla əlaqələri çox zəif olub. Bildirmək istəyirəm ki, Azərbaycan bu əlaqələrin gücləndirilməsinə çalışır və çalışacaqdır. Bizim əməkdaşlığımız zamanın hökmüdür. Bizim əməkdaşlığımız xalqlarımızın, ölkələrimizin tarixi kökləri, əsrlər boyu toplanmış adət-ənənələrinin birliyi, dil birliyi və fəaliyyət birliyi əsasında qurulub. Bu, çox böyük əsasdır və biz bu imkanlardan səmərəli istifadə etməliyik".

Heydər Əliyevin bu etirafı onun siyasi lider kimi böyüklüyünün nümayişi idi. Bu bəyanat həm də Azərbaycan rəhbərinin, bütün tərəfdaşlar kimi, türk respublikaları ilə də açıq və səmimi münasibət qurmaq niyyətini göstərirdi. Azərbaycan Prezidenti bu təmkinli siyasəti sonrakı müddətdə türk dövlət başçıları ilə keçirdiyi bütün görüşlərdə nümayiş etdirmiş, ortaya çıxan müəyyən anlaşmazlıqları səbirlə aradan qaldıraraq qarşılıqlı münasibətlər üçün müsbət zəmin yaradılmasına çalışmışdır. O, türk dövlət başçılarının 1994-2001-ci illərdə keçirilmiş 6 sammitinin hamısında iştirak etmişdir və bu əməkdaşlıq formatında Azərbaycanın təşəbbüskar mövqeyi hər zaman öndə olmuşdur. Azərbaycan rəhbəri türk dövlət başçıları forumunun regional təşkilat kimi möhkəmlənməsinin vacibliyini daima vurğulamışdır: "Bu təşkilat artıq 7 ildir ki, yaşayır. Biz mədəniyyət, iqtisadiyyat, başqa bütün sahələrdə əməkdaşlıq edirik. Tarixi bir daha təhlil edir, müştərək tarixi abidələrimizi yada salır və onların yubileylərini keçiririk. Bu, çox böyük əhəmiyyətə malikdir. Bu, Türk dünyasının inkişafının təməlidir" (28 noyabr 1999-cu il, Türkiyə, İsparta Universiteti).

Bu gün ölkəmizin Mərkəzi Asiyadakı türk respublikaları ilə münasibətlərinə, həmin respublikaların Türkiyə ilə əməkdaşlıq mənzərəsinə, ortada olan layihələrə nəzər salsaq, onların hamısında Azərbaycanın təşəbbüslərini, Heydər Əliyevin müəllifliyini qeyd edə bilərik. 1998-ci ildə Bakıda, Azərbaycanın ev sahibliyi ilə "Böyük İpək Yolu" layihəsinin (Avropa-Asiya nəqliyyat dəhlizi) təməlinin qoyulması, sonrakı illərdə Özbəkistan, Qazaxıstan, Türkmənistan, Azərbaycan və Türkiyənin iştirakı ilə bu yöndə yeni təşəbbüslərin gündəmə gəlməsi və hazırda gerçəkləşən layihələr türk xalqlarının inteqrasiyasına əməli töhfələrdir.

### Xalqlarımızın ümumi mədəni sərvəti

Türk dövlətləri və toplumlarının inteqrasiyasının mühüm bir istiqamətini də mədəni əməkdaşlıq, müştərək mədəni layihələr təşkil edir. Dərin tarixi köklərə malik bağların yeni şəraitdə daha effektiv müstəviyə çıxarılmasında, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının – TÜRKSOY-un formalaşması, bu formatda bir çox layihələrin reallaşması Azərbaycanın aktiv iştirakı sayəsində mümkün olub. Heydər Əliyev türk xalqlarının mədəni abidələrinin, böyük ədiblərinin, şəxsiyyətlərinin yubiley mərasimlərində yaxından iştirak edir və xalqlarımızın ümumi mədəni sərvətinin bizi birləşdirən tarixi dəyər olduğunu diqqətə çatdırırdı. Bu fikir onun 1994-1996-cı illərdə türkmən şairi Məhdimqulunun, qazax ədəbiyyatının klassiki Abayın, böyük özbək hökmdarı Əmir Teymurun, qırğız eposu "Manas"ın yubiley mərasimlərindəki çıxışlarının ana xəttini təşkil edib.

Heydər Əliyev 1996-cı ilin noyabrında dahi şairimiz Məhəmməd Füzulinin 500 illiyi, 2000-ci ilin aprelində isə böyük türk eposu "Kitabi-Dədə Qorqud"un 1300 illiyi ilə bağlı Türk dünyasının təmsilçiləri, dövlət və hökumət adamlarını, alim, şair və yazıçıları, mədəniyyət xadimlərini Bakıya topladı. UNESCO səviyyəsində qeyd olunan bu möhtəşəm yubileylər, eyni zamanda, ümumtürk mədəniyyətinin təntənəsi idi. "Belə yubiley tədbirlərinin birlikdə keçirilməsində əsas məqsəd xalqlarımızın əsrlər boyu yaratdığı zəngin mənəvi irsi indiki nəsillərə qaytarmaq, eyni kökə, eyni tarixə malik olduğumuzu bir daha dərk etməkdir. Digər tərəfdən, belə yubiley tədbirlərini keçirməklə biz nümayiş etdiririk ki, İbn-Sinanın, Nizaminin, Nəvainin, Yunis İmrənin, Füzulinin, Məhdimqulunun, Mahmud Qaşqarinin, Abayın, bir çox başqa dahilərimizin yaradıcılığı, "Kitabi-Dədə Qorqud", "Manas", "Alpamış" kimi ölməz dastanlarımız bütün bəşəriyyətin mədəni sərvətidir", – deyə Heydər Əliyev 2000-ci il aprelin 8-də eposun 1300 illiyi münasibətilə türkdilli dövlət başçılarının Bakıda keçirilən VI zirvə görüşündə bildirmişdi.

Onun təşəbbüskarı, müəllifi olduğu regional layihələr türk xalqlarının yaşadığı geniş coğrafiyada uzunmüddətli inkişaf və əməkdaşlığa meydan açdı. Heydər Əliyevin 2001-ci ildə iştirak etdiyi sonuncu türk zirvəsində (27 aprel 2001-ci il, İstanbul) bəyan etdiyi bu sözləri isə 21-ci yüzilliyin Türk dünyası üçün vəsiyyət kimi qəbul etmək olar: "Türkdilli dövlətlər dünyanın çox mühüm coğrafi-strateji bir regionunda yerləşirlər. Onlar əlverişli mövqeyə, zəngin təbii ehtiyatlara, yüksək intellektual potensiala olan insan resurslarına malikdirlər. Əminəm ki, yeni əsr dövlətlərimiz üçün sabitlik, dinamik inkişaf, konstruktiv dialoq, qarşılıqlı faydalı əməkdaşlıq və rifah əsri olacaqdır. Bütün bunlara biz əldə etdiyimiz tarixi nailiyyətlərin – milli azadlığımız, dövlət müstəqilliyimiz və müştərək işbirliyimizin daha da möhkəmləndirilməsi nəticəsində nail olacağıq".

**Vüqar Əliyev**
**aprel 2013**

## Heydər Əliyev irsinə dair nəşrlər dünya kataloqunda araşdırılıb

Azərbaycan Dövlət İqtisad Universiteti (UNEC) Kitabxana İnformasiya Mərkəzinin "Heydər Əliyev İli"nə həsr edilmiş "Oxu mədəniyyəti" layihəsi çərçivəsində Ümummilli liderin irsi, həyat və fəaliyyətinə dair nəşrlər dünya kataloqunda – "WorldCat"da araşdırılıb.

UNEC-dən bildirilib ki, araşdırma zamanı kataloqda Ulu öndərə həsr olunan 1000-dən çox nəşr müəyyən olunub. Bu nəşrlərə 710 çap kitabı, 73 elektron kitab, 8 mikroforma, 1 dissertasiya, 1 əlyazma, 1 brayl şriftli kitab, 130 məqalə, 84 tammətnli məqalə, 13 arxiv materialı, 1 onlayn video və s. daxildir.

"WorldCat"da yer alan nəşrlər ingilis (470), Azərbaycan (350), rus (130), fransız (45), alman (36), türk (25), italyan (20) və başqa dillərdədir.

## "Mədəniyyət fədaisi"



Lənkəran şəhər Mədəniyyət Mərkəzində rayonun ictimai-mədəni həyatında böyük iz qoyan Şövkət Səfərovanın 90 illiyinə həsr olunmuş "Mədəniyyət fədaisi" adlı sənədli filmin təqdimatı keçirilib.

Lənkəran RMİ-nin rəisi Şahin Şahbazov bildirib ki, Ş.Səfərova mədəniyyət sahəsində çalışdığı dövrdə bölgənin mədəni zənginliklərini ölkəmizdə və xaricdə tanıtmağa nail olub. Yaratdığı "Şənlik" rəqs ansamblı Polşada müsabiqədə "Qızıl balta" mükafatı qazanıb. Hazırda həmin mükafat Lənkəran Tarix-Diyarşünaslıq Muzeyində saxlanılır.

Qeyd olunub ki, Şövkət Səfərova 1932-ci il dekabrın 23-də Lənkəranın Viravul kəndində ziyalı ailəsində anadan olub. Azərbaycan Dövlət Pedaqoji İnstitutunun (indiki ADPU) Filologiya fakültəsində təhsil alıb. O, Lənkəranda bir neçə mədəniyyət ocağının, eləcə də məktəb və uşaq bağçalarının tikintisi və bərpa edilməsinin təşəbbüskarı olub. Şövkət Səfərova 2002-ci il mayın 31-də vəfat edib.

Filmin rejissoru Anar Kəkəyev və ssenaristi Tural Kərimov çıxışlarında ekran işinin ərsəyə gəlməsindən danışıblar.

Çıxışlardan sonra "Mədəniyyət fədaisi" adlı sənədli film nümayiş olunub.

Mədəniyyət xadiminin qızı, pedaqoq Südabə Hüseynova filmin çəkilməsinə və təqdimata görə təşəkkür edib, anası haqqında xatirələrini bölüşüb.

# “Birliyimizi üç dövlət – bir millət anlamında nümayiş etdirməliyik”

Xəbər verdiyimiz kimi, 4-6 aprel tarixlərində Bakıda Azərbaycan Beynəlxalq “Turizm və Səyahətlər” Sərgisi (“AITF-2023”) keçirildi. 15 ölkənin iştirak etdiyi sərgidə Şimali Kipr Türk Cümhuriyyəti (ŞKTC) də təmsil olunurdu.

ŞKTC-nin turizm, mədəniyyət, gənclər və ətraf mühit nazirinin müavini Serhan Aktunçla bu ölkənin Bakıdakı nümayəndəliyində görüşüb həmsöhbət olduq.

*– Azərbaycana ilk gəlişinizdir?*

– Bəli, ilk gəlişimdir. İnanılmaz bir mədəniyyət gördüm. Tarixi məkanlara və sənətə hədsiz qiymət verildiyini görüb çox təsirləndim. ŞKTC vətəndaşlarının da buraları görməyini arzuladım. Bakıya “AITF-2023” sərgisində iştirakla bağlı gəlmişik. Ölkəmiz sonuncu dəfə 2017-ci ildə bu sərgiyə qatılıb. Sərgidə iştirakdan, Bakıda olmağımızdan məmnunuq. Özümüzü evimizdəki kimi hiss edirik.

*– ŞKTC-nin turizm imkanları ilə bağlı nə deyərdiniz?*

– Turizm ölkəmiz üçün çox önəmli sahələrdən biridir. Bu sahə iqtisadiyyatımızın əsas hissəni təşkil edir, yəni lokomotiv sektorumuz hesab olunur. Ona görə də bu sahəyə önəm veririk və dünyadakı böyük sərgilərə mütləq qatılırıq. İngiltərə, Almaniya, Türkiyədəki sərgilərdə mütəmadi iştirak edirik. Ölkəmizdə Bellapais monastırı, Girnə qalası kimi qədim tarixi məkanlar var. Antik liman layihəmiz may ayında tamamlanacaq ki, bəlkə də dünyada belə bir liman yoxdur. Qapalı Maraş çox mühüm məkanlardan biridir. Dünyada ikiyə bölünmüş tək paytaxt Lefkoşadır. Bu da maraq çəkən bir məqamdır. Gəzməli-görməli yerlərimiz var. May ayında Bellapaisdə musiqi festivalımız keçirilir, klassik əsərlər səsləndirilir. Bütün bunların Azərbaycanda daha geniş təbliğ olunması üçün yaxın gələcəkdə media nümayəndələrini ŞKTC-yə dəvət etməyi düşünürük.

Bakı da bizim üçün önəmlidir. Çünki qardaş ölkə olaraq görürük. Dövlət rəhbərlərimizin də qeyd etdiyi kimi, üç dövlət – tək millət şəklində. Pandemiyadan sonra bizimlə Azərbaycan arasında gediş-gəliş çox zəiflədi. Dili, dini eyni olan qardaş ölkə ilə əlaqələri genişləndirməkdən ötrü buradayıq.

*– Ötən il bizim turizm nümayəndələri sizin ölkəyə səfər etdilər. Səfəri necə dəyərləndirirsiniz?*

– Bəli, 2022-ci ildə Azərbaycanın turizmlə məşğul olan nümayəndələrini ölkəmizə dəvət etdik. Mühüm layihələrlə bağlı danışıqlarımız oldu. ŞKTC və Azərbaycan turizm agentliklərini bir araya gətirdik. Xalqlarımız arasında çox xoş bir könül bağlılığı var. Əfsus ki, pandemiyadan sonra bu əlaqələri yoluna qoymaqda bəzi çətinliklər yarandı.



Bu gəlişimiz yəqin ki, əlaqələrimizin bərpası üçün yeni bir başlanğıc olar. Həm turizm, həm də mədəniyyət sahəsində yeni bir yolla irəliləyərik.

*– Budəfəki sərgiyə hansı yeniliklərlə gəlmisiniz?*

– Məncə, xalqlarımız arasında mədəni əlaqələri artıq ön plana çıxarmağın vaxtıdır. Mən buradakı həmkarlarla görüşəndə onların bizim haqqımızda məlumatlı olduqlarının şahidi oldum. Gerçəkdən, xalq olaraq bir-birimizə çox yaxınıq. Bir-birimizi daha dərindən tanımalıyıq. Məsələn, Azərbaycandan ŞKTC-də 190 tələbə təhsil alır. Bu rəqəmin daha da çoxalması lazımdır. 2019-cu ildə ŞKTC-yə cəmi 6 min nəfər azərbaycanlı səfər edib. Ölkələrimiz arasındakı münasibətləri nəzərə alsaq, bu, çox kiçik bir rəqəmdir. 2022-ci ildə isə bu rəqəm, təəssüf ki, 5 min olub.

*– Bu istiqamətdə inkişaf üçün siz tərəfdən hansı tədbirlər reallaşdırılır? Ölkənizə daha rahat gediş-gəliş mümkündürmü?*

– Bu sərgidə nümayiş etdirdiyimiz kimi, daha çox təşkilati məsələlər həll olunmalıdır. ŞKTC-də yeni bir hava yolu şirkəti quruldu. Həftənin çərşənbə günləri Bakıya uçuşları olacaq. Yəni Türk Hava Yolları ilə bərabər, həftədə bir dəfə də yeni şirkət uçuşlar həyata keçirəcək. Doğrusu, elə məsələlər var ki, dövlət rəhbərlərimiz səviyyəsində həll olunmalıdır. Məsələn, ŞKTC Türk Dövlətləri Təşkilatına (TDT) müşahidəçi statusunda üzv qəbul edildi. Bu, çox önəmli bir hadisə oldu. Bir-birimizi iqtisadi, mədəni və digər sahələrdə davamlı dəstəkləsək, daha yaxşı nəticələr əldə edə bilərik. İnanıram ki, üç dövlət – bir millət anlamında gələcəkdə birliyimizi nümayiş etdirə biləcəyik. Onu da qeyd edim ki, Qarabağ Zəfəri xalq olaraq bizi hədsiz sevindirdi.



– ŞKTC çox böyük bir turizm imkanlarına malikdir. Haradasa, ilin əksər aylarında dənizə girə biləcək hava şəraitimiz var. Lüks hotellərimizi də sərgidə tanıdırıq. Bundan əlavə, mətbəx turizmi, mədəniyyət və tariximizin də zənginliklərini təbliğ edirik.

*– Qapalı Maraş da artıq qapalı deyil...*

– Qapalı Maraş (ŞKTC-nin Qazimağusa şəhərinin vaxtilə məşhur olmuş turistik bölgəsi, adada 1974-ci ildəki müharibədən sonra əhali yaşamır – red.) tarixi ilə diqqətçəkən məkanlardan biridir. Burada həyat 1974-cü ildə necə dayanıbsa elə də qalıb. Təbiət şəhəri öz ağuşuna alıb və gizləyib. Bura hazırda bizim turizm baxımından önəmli bir məkandır.

*– Mədəniyyətin hansı sahələrində əməkdaşlıq qurmaq niyyətindəsiniz?*

*– Mədəni mübadiləni daha da çevikləşdirmək üçün birgə layihələr barədə düşünürsünüzmü?*

– Biz TÜRKSOY üzərindən müəyyən layihələr həyata keçiririk. Şairlərimiz, sənət adamlarımızı bu təşkilat vasitəsilə bir araya gətiririk. Sənət və musiqi insanları daha yaxın edir. Ortaq dil və dinə malik toplum olduğumuz üçün daha çox əlaqələr qurularsa, nəticəsi də gözəl olar. İncəsənət, turizm, idman əlaqələri yaxınlaşdırır. Azərbaycanla bu mövzuda birgə layihələrdən qürur duyarıq.

**Lalə Azəri**

# “Türkoloji etüdlər”in təqdimatı keçirilib

Aprelin 11-də Azərbaycan Yazıçılar Birliyinin (AYB) Natəvan klubunda tanınmış türkoloq, filologiya elmləri doktoru, professor Minaxanım Təklələlinin “Türkoloji etüdlər” kitabının təqdimatı olub.



Türkoloq, Əməkdar elm xadimi Tofiq Məlikli təqdim olunan kitab haqqında məlumat verib. Bildirib ki, kitab türkologiya üçün çox dəyərli nəşrdir. Kitab müxtəlif illərdə yayılmış məqalələrin toplusudur: “Professor Minaxanım Təkləli ümumtürk mədəni irsinin araşdırılıb öyrənilməsi, ortaq tariximizin qəsdən təhrif edilmiş şərəfli səhifələrini yenidən bərpa etmək, türk dillərinin tarixi, bu günü ilə bağlı problemləri və uğurları, nəhayət, qədim türklərin dünya mədəniyyətindəki mövqeyini aşkarlamaq istiqamətində araşdırmalar aparır. Elmi axtarışlarla bərabər, bədii yaradıcılıqla da məşğul olur, Türk dünyası əfsanələrini yazıya alır, böyük şəxsiyyətlərin həyatından portret yazılar yazır. Minaxanım Təklələlinin “Mərkəzi Rusiyanın türk coğrafiyası”, “Türk əsilli ruslar”, “Yaddaş”, “Azad və tənha adamlar’”, “Türk sözləri rus dilində” və s. kitablarını da sadalamaq olar. Bu mövzuda kitablar çoxdur. Amma M.Təklələlinin kitabları öz unikallığı ilə seçilir. Bu kitab da türkologiya elmi üçün bir töhfədir”.

Sonra Minaxanım Təkləli kitabın ərsəyə gəlməsindən danışıb. Bildirib ki, araşdırmalarının əsasını bir çox rus sözlərinin, dövlətçilik ənənələrinin, dövlət atributları və simvollarının türkcədən gəlməsi, türk köklü olması təşkil edir.

Yazıçı-publisist, filologiya üzrə fəlsəfə doktoru Şəfəq Nasir, yazıçı-publisist, Əməkdar jurnalist Fazil Güney və digər çıxış edənlər kitab haqqında öz fikirlərini bölüşüblər.

# “Şuşa ziyalıları: unudulmuş irs” və “Azərbaycan mətbuatı: gizli nəşrlər”

## Yeni kitabların təqdimatı olub



Bakı Dövlət Universitetinin (BDU) Jurnalistika fakültəsi və Azərbaycan Mətbuat Şurasının birgə təşkilatçılığı ilə BDU-nun Milli mətbuat tarixi kafedrasının professoru, tarix elmləri doktoru Nəsiman Yaqublunun yeni nəşr edilmiş “Şuşa ziyalıları: unudulmuş irs” və “Azərbaycan mətbuatı: gizli nəşrlər” kitablarının təqdimat mərasimi olub.

Mətbuat Şurasının sədri Rəşad Məcid və idarə heyəti üzvlərinin, tədqiqatçı və jurnalistlərin, müəllim-tələbə heyətinin iştirak etdikləri tədbirdə fakültənin dekanı, Mətbuat Şurasının sədr müavini Vüqar Əliyev təqdim olunan kitablarla bağlı fikirlərini bildirib.

Professor Nəsiman Yaqublu kitablar haqqında məlumat verib. Qeyd edib ki, “Şuşa ziyalıları: unudulmuş irs” kitabında Əhməd bəy Ağaoğlu, Ceyhun Hacıbəyli, Hilal Münşi kimi görkəmli ziyalıların yazıları toplanıb. “Azərbaycan mətbuatı: gizli nəşrlər” kitabında isə ilk dəfə olaraq çar Rusiyası və sovet rejimi dövründə qadağan edilmiş Azərbaycan mətbuatı nümunələri (qəzetlər, jurnallar, kitablar) oxuculara təqdim olunur.

Digər çıxış edənlər tarixi arxiv materialları əsasında işlənmiş həmin kitabların mətbuat tarixinin inkişafındakı önəmindən bəhs ediblər.

# Əbdüssalam Axundzadənin irsi ilə bağlı kitab çap olunub

AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu Türk dünyası əlyazmalarının tədqiqi şöbəsinin böyük elmi işçisi Sevinc Rəhnullanın “Əbdüssalam Axundzadə irsindən: “Cəhalət dərdinin dərmanı” və “Vəz və nəsihət” kitabı işıq üzü görüb.

İnstitutun Elmi şurasının qərarı ilə çap olunan kitabda Qafqaz Müsəlmanları Ruhani İdarəsinin beşinci şeyxülislamı, yazıçı, pedaqoq Əbdüssalam Axundzadənin (1843-1907) həyatına qısa nəzər salınıb, onun Əlyazmalar İnstitutunda mühafizə olunan “Cəhalət dərdinin dərmanı” və “Vəz və nəsihət” əsərlərinin transfoneliterasiyaları verilib.

Nəşrin elmi redaktoru fəlsəfə elmləri doktoru Zəkiyyə Əbilova, redaktoru institutun böyük elmi işçisi Yeganə Rəhnulla, rəyçisi ilahiyyat üzrə fəlsəfə doktoru, dosent Nailə Süleymanovadır.

# Xatirə təqvimi — 15–18 aprel

## Azərbaycan

**15 aprel 1892** – Nasir, tərcüməçi Əli Səbri (Əli Camal oğlu Qasımov; 1892 – 19.2.1983) anadan olub.

**15 aprel 1905** – Məşhur memar, akademik Sadiq Ələkbər oğlu Dadaşov (1905-1946) anadan olub. Milli Azərbaycan Ədəbiyyatı Muzeyi, Nizami Kino Mərkəzi, Bakı Musiqi Akademiyası və s. tikililərin layihələşdirilməsində iştirak edib.

**15 aprel 1907** – Azərbaycan Rəssamlar İttifaqının ilk sədri İsmayıl Hüseyn oğlu Axundov (1907 – 13.9.1969) anadan olub. Qrafika, dekorativ-tətbiqi sənət, teatr rəssamlığı sahəsində çalışıb. “Koroğlu” operasının ilk geyim eskizlərinin yaradılmasında iştirak edib.

**15 aprel 1928** – Cənubi Azərbaycan şairi Səhənd (Bulud Qaraçorlu Səhənd; 1928-1979) Marağa şəhərində doğulub.

**15 aprel 2010** – Xalq artisti Telman Adıgözəlov (17.7.1953 – 2010) vəfat edib. Akademik Milli Dram Teatrında, televiziya tamaşalarında maraqlı obrazlar yaradıb, filmlərdə çəkilib.

**15 aprel 2014** – Prezident İlham Əliyev tanınmış ədəbiyyatşünas, Dövlət mükafatı laureatı, akademik Məmməd Arifin 110 illik yubileyinin keçirilməsi haqqında sərəncam imzalayıb.

**15 aprel 2019** – Prezident İlham Əliyev ədəbiyyatşünas, akademik, Dövlət mükafatı laureatı, Əməkdar elm xadimi Məmməd Cəfər Cəfərovun 110 illik yubileyi haqqında sərəncam imzalayıb.

**16 aprel 1913** – Əməkdar artist Kərim Xankişi oğlu Sultanov (1913-1975) Tovuz rayonunda doğulub. Gəncə Dövlət Dram Teatrının aktyoru olub.

**16 aprel 1916** – Bəstəkar, Əməkdar incəsənət xadimi Qəmbər Muxtar oğlu Hüseynli (1916 – 1.8.1961) anadan olub. Məşhur “Cücələrim” mahnısının (sözləri – Tofiq Mütəllibov), “Ay işığında”, “Gecələr uzanaydı”, “Düşür yadıma” və s. populyar mahnıların müəllifidir.

**16 aprel 1934** – Xalq artisti, bəstəkar Ramiz Aqil oğlu Mirişli (1934 – 17.4.2015) Naxçıvanda doğulub. Musiqili komediyalar (“Gəl, qohum olaq”, “Amerikalı kürəkən”), simfonik əsərlər, mahnılar (“Oxu, tar”, “Dalğalar”, “Bayram axşamları” və s.), “Alma almaya bənzər”, “Qəzəlxan” və s. filmlərə musiqi yazıb.

**16 aprel 1998** – Prezident Heydər Əliyev görkəmli ədəbiyyatşünas alim, yazıçı Mir Cəlal Paşayevin 90 illik yubileyi haqqında sərəncam imzalayıb.

**16 aprel 2007** – Prezident İlham Əliyev Azərbaycan professional vokal sənətinin banisi, görkəmli müğənni və pedaqoq Bülbülün 110 illik yubileyi haqqında sərəncam imzalayıb.

**16 aprel 2020** – Xalq artist Rafiq Hacıbaba oğlu Əliyev (14.11.1949 – 2020) vəfat edib. Gənc Tamaşaçılar Teatrında aktyor, rejissor kimi fəaliyyət göstərib, filmlərdə çəkilib.

**16 aprel 2021** – Xalq artisti, Dövlət mükafatı laureatı, kinorejissor Eldar Tofiq oğlu Quliyev (18.1.1941 – 2021) vəfat edib. “Bir cənub şəhərində”, “Sevinc buxtası”, “Babək”, “Gümüşgöl əfsanəsi” və s. filmlərə quruluş verib.

**17 aprel 1884** – Bəstəkar, Əməkdar incəsənət xadimi Zülfüqar Əbdülhüseyn oğlu Hacıbəyov (1884 – 30.9.1950) anadan olub. Dahi bəstəkar Üzeyir Hacıbəylinin böyük qardaşıdır. “Aşıq Qərib” operasının, “Əlli yaşında cavan” musiqili komediyasının müəllifidir.

**17 aprel 1899** – Türkoloq, şərqşünas Əhməd Cəfəroğlu (Əhməd İsmayıl oğlu Cəfərzadə; 1899 – 6.1.1975) Gəncədə doğulub. Azərbaycanın sovetləşməsindən sonra Türkiyəyə gedib. İstanbul Universitetinin professoru olub, “Azərbaycan yurd bilgisi” dərgisini nəşr etdirib.

**17 aprel 1924** – Kinoşünas və teatrşünas, sənətşünaslıq elmləri doktoru Sabir Əkbər oğlu Rzayev (1924-1978) İrəvanda doğulub. Ermənistan EA İncəsənət İnstitutunun direktor müavini olub.

**17 aprel 1928** – Milli vokal sənətinin görkəmli nümayəndəsi, SSRİ Xalq artisti Lütfiyar Müslüm oğlu İmanov (1928 – 22.1.2008) Sabirabad rayonunda doğulub. Opera və Balet Teatrında baş partiyaları ifa edib, Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyasının professoru olub.

**17 aprel 2009** – Xalq yazıçısı Sabir Məhəmməd oğlu Əhmədli (10.7.1930 – 2009) vəfat edib. “Pillələr”, “Toğana”, “Yasamal gölündə qayıqlar üzür”, “Gedənlərin qayıtmağı”, “Dünyanın arşını” və s. kitabların müəllifidir.

**17 aprel 2015** – Xalq artisti, bəstəkar Ramiz Aqil oğlu Mirişli (16.4.1934 – 2015) vəfat edib.

**18 aprel 1873** – Tanınmış xanəndə Məcid Behbudalı oğlu Behbudov (1873 – 6.9.1945) Şuşada anadan olub. Bakıda, Gəncədə opera tamaşalarında çıxış edib. 30-cu illərdə İrəvanda, sonra Qazaxda yaşayıb, orada vəfat edib. Böyük müğənni Rəşid Behbudovun atasıdır.

**18 aprel 1897** – Azərbaycanın ilk professional qadın müğənnisi, SSRİ Xalq artisti Şövkət Həsən qızı Məmmədova (1897 – 8.6.1981) Tiflisdə doğulub. Milan Konservatoriyasında təhsil alıb. 1923-cü ildə Bakı Teatr Məktəbinin (indiki Mədəniyyət və İncəsənət Universiteti) yaradıcılarından olub. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub.

**18 aprel 1941** – Teatr rəssamı Solmaz Manaf qızı Haqverdiyeva (1941-2000) Bakıda anadan olub. Akademik Milli Dram, Kukla, Gənclər teatrlarında işləyib.

**18 aprel 1991** – Əməkdar incəsənət xadimi, tanınmış şair Tofiq Qulam oğlu Bayram (16.12.1934 – 1991) vəfat edib. Kitabları: “Səninlə görüşəndə”, “Könlümdə yaşayanlar”, “Ay gecikən məhəbbətim” və s.

## Dünya

**15 aprel 1452** – İtalyan rəssamı, heykəltəraş, memar, Avropa İntibahının görkəmli nümayəndəsi Leonardo da Vinçi (Leonardo di ser Piero da Vinci; 1452 – 2.5.1519) Florensiyada doğulub. Məşhur əsərləri: “Mona Liza” (“Cokonda”), “Sonuncu şam” və s.

**15 aprel 1489** – Memar Sinan (Sinaneddin Yusif Abdülmennan oğlu; 1489 – 7.2.1588) Kayseridə doğulub. İstanbulda Süleymaniyə camisi, Ədirnədə Səlimiyə camisi, körpülər və s. tikililərin müəllifidir.

**15 aprel 1931** – İsveç şairi, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (2011) Tomas Tranströmer (Tomas Gösta Tranströmer; 1931 – 26.3.2015) anadan olub.

**16 aprel 1844** – Fransız yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1921) laureatı Anatol Frans (Anatole France - François-Anatole Thibault; 1844-1924) anadan olub. Əsərləri: “Müasir tarix” silsilə romanları, “Mələklərin üsyanı” və s.

**16 aprel 1889** – İngilis aktyoru, rejissor Çarli Çaplin (Charles Spencer Chaplin; 1889-1977) Londonda doğulub. 1910-1940-cı illərdə ABŞ-da yaşayıb, 1952-ci ildə İsveçrəyə (Cenevrə) köçüb. Filmləri: “İt həyatı”, “Uşaq”, “Qızıl hərisliyi”, “Böyük diktator”, “Sirk” və s. 1972-ci ildə fəxri “Oskar”a layiq görülüb.

**16 aprel 1924** – Amerika bəstəkarı və dirijoru Henri Mançini (Enrico Nicola Mancini; 1924-1994) anadan olub. 4 dəfə “Oskar” mükafatına layiq görülüb.

**17 aprel 1894** – Rus aktyoru, SSRİ Xalq artisti Boris Vasilyeviç Şukin (1894-1939) anadan olub. Moskva Teatr Məktəbi aktyorun adını daşıyır.

**17 aprel 1897** – Norveç bəstəkarı Harald Severud (1897-1992) anadan olub. Əsərləri: “Ehtiraslı rondo”, “Etiraz balladası” və s.

**18 aprel 1819** – Avstriya bəstəkarı və dirijoru Frans fon Zuppe (Franz von Suppe - əsl adı Francesco Suppe Demelli; 1819-1895) anadan olub. “Gözəl Qalateya”, “Bokaçço” operalarının müəllifidir.

**18 aprel 1917** – SSRİ Xalq artisti Georgi Vitsin (1917 – 22.10.2001) anadan olub. Filmləri: “Qafqaz əsiri”, “I əməliyyatı...”, “Uğur centlmenləri”, “Balzaminovun evlənməsi və s.

**Hazırladı: V.Orxan**

№28 (1997)
14 aprel 2023
www.medeniyyet.az

# Daşkənddə "Şuşa Günləri"




əvvəli səh. 1-də

Mərkəzin konfrans zalında keçirilən mərasimdə AMM-nin direktoru Samir Abbasov Özbəkistanda ilk dəfə keçirilən "Şuşa Günləri" layihəsinin iki ölkənin mədəni əlaqələrində mühüm hadisə olduğunu deyib, Şuşanın Azərbaycan mədəniyyəti, musiqisi, poeziyasında müstəsna yerindən söz açıb.

Səfir Hüseyn Quliyev Şuşanın otuz ilə yaxın erməni işğalı altında qaldığını, bu müddətdə şəhərdəki bir çox tikililərin, tarixi abidələrin məhv edildiyini diqqətə çatdırıb. Bildirib ki, şəhərin 2020-ci ildə işğaldan azad edilməsindən sonra burada aparılan quruculuq işləri və keçirilən beynəlxalq tədbirlər hər bir azərbaycanlıya qürur hissi yaşadır.



Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva bu il 100 illiyi qeyd olunan Türk dünyasının böyük oğlu Heydər Əliyevin adını daşıyan Azərbaycan Mədəniyyət Mərkəzində "Şuşa Günləri"nin açılış mərasiminin keçirilməsini əlamətdar hadisə kimi dəyərləndirib. O, Şuşa şəhərinin "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilməsi ilə əlaqədar rəhbərlik etdiyi təşkilat tərəfindən ilk dəfə belə bir layihənin 2022-ci ilin dekabrında Bursada və bu il də birinci olaraq Özbəkistanda keçirildiyini vurğulayıb.

Özbəkistanın mədəniyyət və turizm naziri Ozodbek Nazarbekov "Şuşa Günləri" tədbirlərini yüksək qiymətləndirib, bu hadisənin yalnız Azərbaycan mədəniyyəti üçün deyil, Özbəkistan mədəniyyəti üçün də əhəmiyyətli olduğunu vurğulayıb.

TÜRKPA-nın baş katibi Mehmet Sureyya Er və Özbəkistanın Mədəni Miras Agentliyinin direktoru Baxodir Abdukarımov Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu ilə əməkdaşlığın vacibliyini vurğulayaraq, bu layihənin Türk dünyası ölkələri arasında əlaqələrin inkişafına xidmət edəcəyini söyləyiblər.

Sonra Xurşidbanu Natəvan haqqında sənədli film göstərilib. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu tərəfindən hazırlanmış filmdə şairənin həyatı və yaradıcılığına dair bədii səhnələr də yer alıb. Filmin ssenari müəllifi Ülviyyə Heydərova, rejissoru Zəhra Quliyevadır. Baş rolda Xalq artisti Mehriban Zəki çəkilib.

Tədbirin bədii hissəsində Özbəkistanın Xalq artisti, "Yalla" ansamblının bədii rəhbəri Fərrux Zakirov, azərbaycanlı musiqiçilər Nisbət Sərdayeva, Rüstəm Müslümov, Elnur Salahovdan ibarət muğam üçlüyünün ifasında Azərbaycan və özbək mahnıları səsləndirilib, AMM-in "Azərbaycan qızları" rəqs ansamblı və dünyaca məşhur "Özbəgim yoshlari" musiqili rəqs qrupunun rəngarəng çıxışları olub.

Rəsmi qonaqlara və təşkilatçılara Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu adından "Şuşa günləri" münasibətilə xatirə hədiyyələri təqdim edilib.

Silsilə tədbirlər çərçivəsində Daşkənddəki Turan Kitabxanasında Xurşidbanu Natəvanın şeirlərinin özbək dilinə tərcüməsindən ibarət "Xurşidə yetər başım" kitabının təqdimatı olub. Kitab AMM-in layihəsi əsasında 2022-ci ildə nəşr edilib.

Daşkənddə "Şuşa Günləri" çərçivəsində Qarabağa aid milli geyimlərin moda nümayişi, digər tədbirlər də təşkil olunub.

# Turizm imkanlarımız Türkiyədə təbliğ olunur

Azərbaycanın turizm imkanları 12-15 aprel tarixlərində İstanbulda keçirilən "EMITT – 2023" Şərqi Aralıq dənizi Beynəlxalq Səyahət və Turizm Sərgisində təbliğ olunur.

Sərgidə Dövlət Turizm Agentliyinin dəstəyi, Azərbaycan Turizm Bürosunun təşkilatçılığı ilə ölkəmizi iki yerli turizm şirkəti, hotel və mehmanxana qrupu və "Azərbaycan Hava Yolları" QSC təmsil edir.

Sərgi çərçivəsində turizm şirkətləri ilə B2B formatlı işgüzar görüşlər keçirilir və qarşılıqlı turist mübadiləsinə təkan verəcək ikitərəfli əməkdaşlıq imkanları dəyərləndirilir.

26-cı dəfə keçirilən və bu il dünyanın 30 ölkəsinin qatıldığı EMITT dünyada turizm sahəsində 5 ən böyük sərgidən biri hesab olunur.




Türkiyə 2022-ci ildə Azərbaycana səfər edənlərin sayına görə 2-ci yeri tutub. 2022-ci ilin statistikasına əsasən Azərbaycana səfər edən Türkiyə vətəndaşlarının sayı 311 880 nəfər olub ki, bu da pandemiyadan öncəki 2019-cu il rəqəmlərinin 99% bərpası deməkdir.

# Dünyanın ən böyük kosmik raketi uçuşa hazırdır



Amerikalı milyarder İlon Maskın "SpaceX" kosmik şirkəti "Starship" adlı yeni super ağır daşıyıcı raketin ilk sınaq uçuşunun 17-də gerçəkləşəcəyini bildirib.

Texasda start meydançasında quraşdırılmış "Starship" raketi Ay və Marsa uçuşlar üçün hazırlanır. Raketin birinci pilləsi (Super Heavy) 33 ədəd "Raptor 2" mühərriki ilə təchiz olunub, ikinci pilləsi yük və insanların daşınması üçün nəzərdə tutulan kosmik gəmidir ("Starship").

İlk orbital buraxılış planı, raketin buraxılmasından qısa müddət keçdikdə pillələrin ayrılmasından sonra Super Heavy gücləndiricisinin Meksika körfəzində yumşaq bir şəkildə eniş edəcəyi, "Starship" gəmisinin isə orbitə çatacağı, sonra Yer atmosferinə girəcəyi, geri dönüşdə Sakit okeanda, Havay arxipelaqının şimalında suya düşəcəyi nəzərdə tutulur.

Sınaq plana uyğun keçərsə, "Starship" dünyanın ən böyük və ən güclü işləyən raketi olacaq və bu titulu ilk dəfə 2022-ci ilin noyabrında buraxılan ağır NASA SLS super güclü daşıyıcı raketdən alacaq.

Raketin ümumi hündürlüyü 120 metr (o cümlədən yük və insan daşıyıcı hissə 50 metr), diametri 9 metr, start çəkisi 5 min ton, faydalı yükqaldırması 150 tondur.




Olaylar, faktlar (15–18 aprel)

### 111 il əvvəl...

**17 aprel 1912-ci ildə** Rusiyada "Lena gülləbaranı" baş verib. Lena çayı sahilində qızıl mədənlərində çalışan fəhlələrin 8 saatlıq iş günü və əməkhaqlarının artırılması tələbi ilə keçirdikləri etiraz aksiyasının silah gücü ilə dağıdılması nəticəsində 170 nəfər ölmüş, 200-dən çox insan yaralanmışdı.

### 106 il əvvəl...



**15 aprel 1917-ci ildə** Bakıda Qafqaz müsəlmanlarının qurultayı başlayıb. Qurultay Rusiyada çarizmin süqutundan (Fevral inqilabı) sonra azərbaycanlıların milli istiqlal məramının bəyan olunması yönündə ilk cəhd idi. Qurultayda Məhəmməd Əmin Rəsulzadə, Nəriman Nərimanov, Məşədi Əzizbəyov, Həmid Sultanov məruzələrlə çıxış ediblər. Qurultay Rusiya Müvəqqəti Hökumətinin tanınması, Rusiyanın demokratik və federativ əsasda yenidən qurulması, Qafqaz müsəlmanlarının muxtariyyətinin təmin olunması barədə qərar qəbul edib.

### 85 il əvvəl...

**17 aprel 1938-ci ildə** SSRİ Ali Soveti Rəyasət Heyətinin fərmanı ilə bəstəkar Üzeyir Hacıbəyliyə, vokalçılar Şövkət Məmmədovaya və Bülbülə "SSRİ Xalq artisti" fəxri adı verilib. Onlar bu ada layiq görülən ilk azərbaycanlı incəsənət xadimləri idi.

### 77 il əvvəl...

**17 aprel 1946-cı ildə** Suriya müstəqilliyini elan edib. 1516-1918-ci illərdə Osmanlı imperiyasının tərkibində olan Suriya daha sonra Fransa və Britaniyanın mandatı ilə idarə olunurdu. 1958-ci ildə Suriya Misirlə birləşərək Birləşmiş Ərəb Respublikasını yaratdı, 1961-ci ildən yenidən ayrıca dövlət oldu.

### 74 il əvvəl...

**18 aprel 1949-cu ildə** İrlandiya adasının cənubu Britaniya Birliyindən ayrılaraq İrlandiya Respublikası kimi müstəqilliyini elan edib. 1914-cü ildə İrlandiya Britaniya tərkibində muxtariyyət əldə etmiş, 1921-də isə Cənubi İrlandiya Britaniya Birliyi tərkibində dominion (nisbi özünüidarə) statusu almışdı. İrlandiya Respublikasının elan olunması ilə ada iki yerə bölündü və Şimali İrlandiya muxtar özünüidarə statusu ilə Londonun nəzarətində qaldı.

### 70 il əvvəl...

**18 aprel 1953-cü ildə** Azərbaycan SSR Mədəniyyət Nazirliyi yaradılıb. Azərbaycan SSR Qanununa əsasən, yeni nazirlik Kinematoqrafiya Nazirliyi, Mədəni-Maarif Müəssisələri Komitəsi, Radio Komitəsi, İncəsənət İşləri İdarəsi, Poliqrafiya Sənayesi, Nəşriyyat və Kitab Ticarəti İşləri İdarəsinin birləşdirilməsi nəticəsində təşkil edilib. Azərbaycan SSR Ali Sovetinin qərarı ilə Məmməd Ələkbərov ilk mədəniyyət naziri təyin edilib. Bundan öncə 15 mart 1953-cü il tarixli SSRİ Qanununa əsasən SSRİ Mədəniyyət Nazirliyi yaradılmışdı.

### 30 il əvvəl




**17 aprel 1993-cü ildə** Türkiyə Prezidenti Turqut Özal vəfat edib. Özal Atatürkdən sonra vəzifədə ikən dünyasını dəyişən Türkiyənin ikinci dövlət başçısı idi. Ölkədə beşgünlük matəm elan edilib.

### 24 il əvvəl...

**17 aprel 1999-cu ildə** Azərbaycan neftini dünya bazarına çıxaran ilk boru xətti – Bakı-Supsa (Gürcüstan, Qara dəniz) kəməri istismara verilib. 827 km uzunluğunda olan və sutkalıq nəql həcmi 105 min barrel (ildə 5 milyon ton) olan kəmər "Əsrin müqaviləsi" çərçivəsində istehsal olunan neftin ilkin mərhələdə daşınması üçün nəzərdə tutulmuşdu.

**Hazırladı: V.Orxan**

# "Zamanın pillələri ilə"

## Tbilisidə Əməkdar incəsənət xadimi, rəssam Çingiz Fərzəliyevin sərgisi açılıb

Aprelin 12-də Tbilisidəki Dmitri Şevardnadze adına Milli Qalereyada Azərbaycanın tanınmış rəssamı, Əməkdar incəsənət xadimi Çingiz Fərzəliyevin "Zamanın pillələri ilə" adlı yubiley sərgisi açılıb.



Sərgi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin və Gürcüstanın Mədəniyyət, İdman və Gənclər Nazirliyinin tərəfdaşlığı, Azərbaycan Milli İncəsənət Muzeyinin və Gürcüstan Milli Qalereyasının birgə təşkilatçılığı ilə reallaşıb.

Açılışdan öncə qalereyada sərgi ilə bağlı mətbuat konfransı keçirilib. Mətbuat konfransında müəllifin yaradıcılığı barədə ətraflı məlumat verilib. Bildirilib ki, Gürcüstan və Azərbaycan arasında diplomatik münasibətlərin qurulmasının 30 illiyinə həsr olunmuş sərgi rəssamın 60 illik müddət ərzində ərsəyə gətirdiyi yaradıcılığının yalnız bir hissəsini əhatə edir.

Akademik, Gürcüstanın sabiq mədəniyyət naziri Valeri Asatiani deyib ki, Çingiz Fərzəliyevin yaradıcılığı heyrətamiz mənzərələri, natürmortları və fəlsəfi xarakteri ilə seçilir.

Ç.Fərzəliyev sərginin təşkilinə və göstərilən qonaqpərvərliyə görə minnətdarlıq edib. Bildirib ki, sərginin "Zamanın pillələri ilə" adlandırılması da təsadüfi deyil: "Biz son onilliklər ərzində bir çox dəyişikliklərin şahidi olduq. Bu hadisələr içərisində qürur duyacağımız və kədərləndirici hadisələr olub. Sərgidə də həmin dəyişiklikləri əks etdirən əsərlər təqdim edilir".



Sərginin açılış mərasimində Azərbaycanın Rəssamlar İttifaqının sədri Xalq rəssamı Fərhad Xəlilov, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının rektoru, SSRİ Xalq artisti Fərhad Bədəlbəyli, Azərbaycanın Gürcüstandakı səfiri Faiq Quliyev, Gürcüstanın mədəniyyət nazirinin müavini Kaxa Sixarulidze, xarici işlər nazirinin müavini Xatuna Torturadze, SOCAR-ın Gürcüstan nümayəndəliyinin rəhbəri Mahir Məmmədov və mədəniyyət xadimləri iştirak ediblər.

Milli Qalereyanın direktor müavini Nika Axalbedaşvili çıxış edərək Azərbaycan-Gürcüstan mədəni əlaqələrindən danışıb, sərginin iki ölkə arasındakı mədəni əlaqələrə töhfə olduğunu bildirib.

Səfir Faiq Quliyev ölkələrimiz arasındakı strateji tərəfdaşlıq münasibətlərindən danışıb, bu əlaqələrin bütün istiqamətlərdə, eləcə də mədəniyyət sahəsində inkişafında Ümummilli lider Heydər Əliyevin rolunu xüsusi qeyd edib. Diplomat Heydər Əliyev Fondunun Gürcüstanda reallaşdırdığı layihələrin əhəmiyyətindən də söz açıb.

Fərhad Xəlilov, Kaxa Sixarulidze, Xatuna Tortuadze və digər çıxış edənlər Ç.Fərzəliyevin yaradıcılığından söz açıb, Azərbaycanda və Gürcüstanda qarşılıqlı olaraq bu cür sərgilərin təşkil olunmasının əhəmiyyətini qeyd ediblər.



Bildirilib ki, sərgidə rəssamın yağlı boya ilə kətan üzərində çəkdiyi 50-yə yaxın əl işi nümayiş etdirilir.

"Zamanın pillələri ilə" sərgisi çərçivəsində Gürcüstanda nəşr olunan sərgiyə dair kataloq təqdim edilib.

Sərgidə, həmçinin Çingiz Fərzəliyevin müəllifi olduğu kitab və albomlar da nümayiş etdirilir. Sərginin kuratorları Çingiz Fərzəliyev, Könül Rəfiyeva və Məryəm Dvalidir.

Sərgi mayın 10-dək ziyarətçilər üçün açıq qalacaq.

Onu da qeyd edək ki, Tbilisidəki Milli Qalereyanın adını daşıdığı Dmitri Şevardnadze (1885-1937) Gürcüstanın tanınmış rəssamıdır. Repressiya qurbanı olub. Gürcüstanın keçmiş rəhbəri Eduard Şevardnadze rəssamın qardaşı nəvəsidir.

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

MƏDƏNİYYƏT

Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79 (müxbirlər)
530-34-38 (mühasibatlıq, yayım)

**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5050. **Sifariş:** 961
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641